QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 213 (8806) ÇƏRŞƏNBƏ AXŞAMI, 5 oktyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Mən Suqovuşandayam, mən Şuşadayam, mən hər yerdəyəm!

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Tərtər və Bərdə rayonlarında səfərdə olub.

- Tərtər şəhərinin mərkəzində Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.
- Tərtərin Suqovuşan qəsəbəsinə və Talış kəndinə gedən avtomobil yollarının açılışını edib.
- Talış-Tapqaraqoyunlu-Qaşaltı-Naftalan avtomobil yolunun təməlini qoyub.
- Tərtər rayonunun Talış kəndində və Suqovuşan qəsəbəsində Azərbaycan bayrağını ucaldıb. Azərbaycan Prezidenti Talış kəndində ermənilər tərəfindən dağıdılmış alban-udi və pravoslav kilsələrində olub.
- "Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su Elektrik stansiyalarının yenidənqurmadan sonra açılışını edib.
- Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin "Smerç" raketləri ilə hücumu nəticəsində Tərtər şəhərinin sakini Sahib İsmayılovun dağılmış evinə baxıb və onun yerinə inşa edilən yeni evdə yaradılan şəraitlə tanış olub.
- Ermənistan silahlı birləşmələri tərəfindən Tərtər rayonuna müxtəlif tipli reaktiv yaylım atəşi sistemləri və artilleriya qurğularından atılmış mərmilərə baxıb.
- Ulu Öndər Heydər Əliyevin Bərdə şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.
- Bərdə Peşə Liseyinin açılışında iştirak edib.

*Bax: səh. 2-5*

## Prezident İlham Əliyev Cəbrayıl rayonunda səfərdə olub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Cəbrayıl rayonunda səfərdə olub.**

- "KamAZ" ASC ilə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin birgə servis mərkəzinin təməlini qoyub.
- Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılacaq "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının təməlini qoyub.
- 110/35/10 kV-luq "Cəbrayıl" yarımstansiyasının açılışında iştirak edib.
- Dövlət Sərhəd Xidmətinin hərbi hissə kompleksinin açılışında iştirak edib.
- Cəbrayıl rayon Mərkəzi Xəstəxanasının, məktəb binasının və Cəbrayıl şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin təməllərini qoyub.
- Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüşüb.
- Cəbrayıl Memorial Kompleksinin və Cəbrayıl şəhərinin bərpasının təməl daşını qoyub.

*(Səfərdən geniş hesabat qəzetin növbəti nömrəsində dərc ediləcək)*

# Mən Suqovuşandayam, mən Şuşadayam,

## Tərtərdə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Tərtər rayonuna səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Tərtər şəhərinin mərkəzində Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

## Prezident Tərtərin Suqovuşan qəsəbəsinə və Talış kəndinə gedən avtomobil yollarının açılışını edib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Tərtər rayonunun Suqovuşan qəsəbəsinə və Talış kəndinə gedən avtomobil yollarının açılışını edib.

AZƏRTAC xəbər verir ki, ümumi uzunluğu 28,5 kilometr, eni 9 metr olan yol 2 hərəkət zolağından ibarətdir. Suqovuşan qəsəbəsinə və Talış kəndinə gedən avtomobil yolları uzun müddət düşmən tapdağı altında olduğundan tamamilə sıradan çıxmış və dağılmışdır.

Yolda aparılan tikinti işləri inşaat norma və qaydalarının tələblərinə uyğun yüksək keyfiyyətlə həyata keçirilib. Yolboyu layihə üzrə avtobus dayanacaqları inşa edilib, hərəkətin normal təşkili üçün digər zəruri infrastruktur yaradılıb. Suqovuşan qəsəbəsinə və Talış kəndinə gedən avtomobil yolları ötən əsrin 70-ci illərində Suqovuşan su anbarının tikintisi ilə əlaqədar Ulu Öndər Heydər Əliyevin tapşırığına əsasən inşa edilib.




Qeyd edək ki, Suqovuşan-Xan arxının 37 kilometr betonlama işinin layihəsi də artıq hazırlanıb. Suqovuşanın işğaldan azad olunması ilə Bərdə, Goranboy, Naftalan, Yevlax, Ağcabədi rayonları daxil olmaqla təxminən 30 min hektara yaxın əraziyə ilk dəfə su verilib. Bu da fermerlərə növbəli əkini təmin etməyə imkan yaradıb. Fermerlər artıq iki mərhələdə işləyə bilirlər.

## Prezident Talış-Tapqaraqoyunlu-Qaşaltı-Naftalan avtomobil yolunun təməlini qoyub







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Tərtər rayonunda Talış-Tapqaraqoyunlu-Qaşaltı-Naftalan avtomobil yolunun təməlini qoyub.

AZƏRTAC xəbər verir ki, Tərtərin Talış kəndindən Goranboy rayonunun Tapqaraqoyunlu kəndini keçməklə Naftalan şəhərinə doğru yeni yolun inşası yolboyu yerləşən yaşayış məntəqələrinin sakinlərinin rahat gediş-gəlişini təmin etməklə bərabər bölgənin sosial-iqtisadi inkişafına töhfə verəcək. Bu yolun istifadəyə verilməsi nəticəsində Tərtər şəhəri ilə yanaşı, alternativ olaraq Naftalan şəhərindən də bu istiqamətdə hərəkət etmək mümkün olacaq. Yolun ümumi uzunluğu 22 kilometr təşkil edəcək.

## Prezident İlham Əliyev Tərtər rayonunun Talış kəndində Azərbaycan bayrağını ucaldıb









Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Tərtər rayonunun Talış kəndində Azərbaycan bayrağını ucaldıb.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı çıxış edərək dedi:

- Talış kəndi düz bir il bundan əvvəl Azərbaycan Ordusu tərəfindən işğalçılardan azad edildi. Bir ildən sonra mən buradayam, Azərbaycan torpağında, azad edilmiş Talış kəndində və Azərbaycan bayrağını Talış kəndində ucaltmışam.

*Ardı 3-cü səh.*

# mən hər yerdəyəm!

## Prezident İlham Əliyev Tərtər rayonunun Talış kəndində Azərbaycan bayrağını ucaldıb







*Əvvəli 2-ci səh.*

Bir il bundan əvvəl burada şiddətli döyüşlər gedib, şəhidlərimiz olub. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Talış kəndinin işğaldan azad edilməsi uğurlu əməliyyatlarımız arasında xüsusi yerə malikdir. Çünki burada çox güclü istehkamlar qurulmuşdu, düşmən burada bir neçə müdafiə xətti qurmuşdu və əlbəttə ki, bizi buradan gözləyirdi. Bir çox əməliyyatlarda biz düşmənin gözləmədiyi yerlərdən əks-hücum etmişdik. Ancaq bu istiqamətdə, burada döyüş meydanı kifayət qədər ensizdir, kifayət qədər məhduddur, ona görə, təbii ki, düşmən bizi burada gözləyirdi və biz də gəldik, heç nəyə baxmadan gəldik.

Qan tökərək, şəhidlər verərək gəldik, Talış və Suqovuşan kəndlərini düz bir il bundan əvvəl işğaldan azad etdik. Bu, bizə çox böyük strateji üstünlük verdi. Bu, bir daha göstərdi ki, Azərbaycan Ordusunun qabağında Ermənistan ordusu acizdir, dayana bilməz və Qələbə uzaqda deyil. Bu gün Azərbaycanın suverenliyi bu bölgədə tam təmin edilib, bir il ərzində böyük infrastruktur işləri görülüb. Əsas odur ki, burada Azərbaycan vətəndaşları sülh, əmin-amanlıq şəraitində yaşayacaqlar. Əlbəttə ki, biz Talış kəndini bərpa edəcəyik, buraya həyat qayıdacaqdır.

* * *

Sonra Prezident İlham Əliyev Talış kəndində ermənilər tərəfindən dağıdılmış alban-udi kilsəsində olub.

**Dövlət başçısı dedi:**

- Bu da qədim alban kilsəsidir. Görün, ermənilər bu kilsəni nə günə salıblar. Sonra da deyəcəklər ki, guya bu, erməni kilsəsidir. Erməni kilsəsi olsaydı, bu günə salardılar?! Tarixi abidə kimi qorunacaq. Azərbaycanda bütün dini abidələr dövlət tərəfindən qorunur. Bütün dini konfessiyaların abidələri bundan sonra da qorunacaqdır. Biz bu qədim alban kilsəsini də bərpa edəcəyik. Ermənilər 30 il ərzində bu bölgəni ancaq dağıdıblar.



İcra hakimiyyətinin başçısı **Müstəqim MƏMMƏDOV:**

- Buranı özləri suvayıblar ki, alban-udi kilsəsi olduğu bilinməsin. Yəni, saxtakarlıq ediblər.

**Prezident İlham ƏLİYEV:**

- Ancaq saxtakarlıq. Bütün dünya da görsün ki, ermənilər alban kilsəsini nə günə qoyublar.

* * *

Daha sonra kənddəki rus-pravoslav kilsəsində olan **Prezident İlham ƏLİYEV** dedi:

- Bu da Talış kəndində yerləşən rus-pravoslav kilsəsidir. Bunu da ermənilər dağıdıblar. Görün, nə gündədir, daşları da söküblər, divarları da söküblər. İndiki vəziyyəti bax, budur. Biz bu kilsəni də bərpa edəcəyik, təmir edəcəyik. Ermənilərdən fərqli olaraq biz bütün dini abidələrə hörmətlə yanaşırıq.

Bu binalar isə onların hərbi hissəsi olub.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Tərtər rayonunun Suqovuşan qəsəbəsində Azərbaycan bayrağını ucaldıb. AZƏRTAC xəbər verir ki, dövlət başçısı çıxış etdi.

## Prezident İlham Əliyev Tərtər rayonunun Suqovuşan qəsəbəsində Azərbaycan bayrağını ucaldıb

### Prezident İlham Əliyevin çıxışı

- Bir il bundan əvvəl, oktyabrın 3-də Suqovuşan qəsəbəsi işğaldan azad edilmişdir. Bu, çox əlamətdar hadisə idi, müharibənin ilk günlərində strateji qəsəbəni işğaldan azad etmək böyük uğurumuz idi, böyük qələbəmiz idi. Bu qəsəbənin işğaldan azad edilməsi zamanı şəhidlərimiz oldu, qazilərimiz oldu. Allah bütün şəhidlərimizə rəhmət eləsin, yaralananlara şəfa versin.

Biz keçən ayın 27-də Anım gününü keçirərkən Vətən uğrunda həlak olmuş qəhrəman şəhidlərimizin xatirəsini bir daha böyük hörmətlə yad etdik.

Suqovuşan qəsəbəsinin azad edilməsi strateji nöqteyi-nəzərdən çox böyük əhəmiyyət kəsb edirdi. Çünki bu qəsəbənin yerləşməsi müharibənin gedişatında önəmli rol oynayırdı və qəsəbənin əlimizdə olması bizə gələcək əməliyyatlarımızda üstünlük təşkil edirdi. Düşmən yəqin ki və təbii ki, bilirdi, biz bu istiqamətdən hərəkətə keçəcəyik. Talış kəndi və Suqovuşan qəsəbəsi bir gündə - keçən il oktyabrın 3-də işğaldan azad edilmişdir. Burada çox güclü istehkamlar qurulmuşdu, bir neçə müdafiə xətti təşkil edilmişdi. Bütün strateji yüksəkliklərdə, qəsəbəyə gedən yüksəkliklərdə düşmən yerləşmişdi. Azərbaycan Ordusu böyük qəhrəmanlıq və fədakarlıq göstərərək şiddətli döyüşlər nəticəsində Talışı və Suqovuşanı işğaldan azad etdi. Suqovuşan qəsəbəsinin və Talış kəndinin azad edilməsinin digər əhəmiyyətli tərəfi ondan ibarətdir ki, birinci azad edilmiş kəndlərdən sonra, - birinci kəndlər sentyabrın 27-də müharibənin ilk günündə azad edilmişdi - 6 kənd, - oktyabrın 3-nə qədər hər hansı bir yaşayış məntəqəsi azad edilməmişdi. Bunun təbii səbəbləri var idi, hazırlıq gedirdi, manevrlər gedirdi, şiddətli döyüşlər gedirdi. Ancaq müharibənin ilk günündə əldə edilmiş qələbələrdən sonra növbəti yaşayış məntəqələrinin azad edilməsi, əlbəttə ki, ordumuza, xalqımıza əlavə güc, mənəvi güc verdi və müharibənin yeddinci günündə səkkiz kəndin azad edilməsi, o cümlədən keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində yerləşmiş bu kəndlərin azad edilməsi bizə böyük mənəvi üstünlük verirdi.

Bu kəndlərin strateji əhəmiyyəti ondadır ki, burada düşmənin çox böyük canlı qüvvəsi yerləşmişdi. Bu kəndlərin azad olunması bizim bu bölgədəki strateji yollara da nəzarətimizi təmin etdi və düşmənin canlı qüvvəsinin hərəkəti üçün, manevrləri üçün çox böyük problemlər yaradıldı, məhdudiyyət yaradıldı. Talış kəndinin və Suqovuşan qəsəbəsinin yerləşdiyi ərazidə düşmənin çox böyük canlı qüvvəsi yerləşmişdi və demək olar ki, müharibənin son gününə qədər bu canlı qüvvə digər əməliyyatlarda iştirak edə bilmirdi. Birinci növbədə ona görə ki, strateji yollar artıq bizim nəzarətimizdə idi, ikincisi ona görə ki, əgər buradan düşmən öz canlı qüvvəsini başqa yerlərə çəksəydi, əlbəttə, Azərbaycan Ordusu bu istiqamətdə bundan sonra da böyük dərəcədə irəliləyə bilərdi. Ona görə bizim taktiki addımlarımız və manevr etmək imkanlarımız düşünülmüş addımlar idi və demək olar ki, burada düşmənin böyük bir hərbi birləşməsi iflic vəziyyətdə qalmışdı.

Suqovuşan qəsəbəsinin əhəmiyyəti, eyni zamanda, ondadır ki, burada Suqovuşan su anbarı yerləşir. Su anbarının çox böyük strateji əhəmiyyəti var. Bu su anbarı Sərsəng su anbarı ilə bərabər Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1976-cı ildə inşa edilmişdir. Bu su anbarlarının əsas məqsədi keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati hüdudlarının kənarında yerləşən rayonlara - Tərtər, Bərdə, Ağdam, Goranboy və digər rayonlara su vermək idi. İşğal zamanı mənfur düşmən bizə qarşı ekoloji terror da törədirdi, su terroru törədirdi. Hətta Avropa Şurası Parlament Assambleyasının sessiyalarının birində bu məsələ ilə bağlı xüsusi məruzə təqdim olunmuşdu və məruzə qəbul edilmişdi, qətnamə qəbul edilmişdi. Ermənistan dövləti ittiham edilmişdi və bu, bizim böyük uğurumuz idi. Təsadüfi deyil ki, ondan sonra bu məruzəni hazırlayanlara qarşı erməni lobbi təşkilatları mənəvi terror siyasəti aparmağa başlamışdı. İşğal dövründə ermənilər yay mövsümündə suyu kəsirdilər, qış mövsümündə isə suyu buraxırdılar. Yayda bizim kəndlilərimiz, fermerlərimiz susuz qalırdı, qışda isə suyu buraxıb daşqınlara səbəb olan təbii fəlakət törədirdilər. Yəni bu, bir daha göstərir ki, biz hansı çirkin düşmənlə üz-üzəydik. Onlar bütün imkanlardan istifadə edib bizə daha böyük ziyan vurmaqla məşğul idilər. Suqovuşan qəsəbəsinin azad edilməsi və su anbarının bizim nəzarətimizə keçməsi nəticəsində artıq Ermənistan dövlətinin bu imkanları da onların əlindən çıxdı. İndi buraya biz hakimik. Bu il Suqovuşan su anbarından istifadə edərək 30 il ərzində ilk dəfə olaraq Tərtər və digər rayonlara su verildi. Bu günə qədər suvarılmayan, yaxud da ki, az suvarılan 30 min hektar torpağa bu qəsəbənin azad edilməsi nəticəsində su verilmişdir və indi kanallarda təmir işləri gedir. Bizim azad edilmiş torpaqlarda - Şərqi Zəngəzur və Qarabağ iqtisadi zonalarında mövcud olan su ehtiyatlarının səmərəli şəkildə istifadəsi ilə bağlı konkret addımlar atılır və çox ciddi proqram icra edilməkdədir. Artıq su mənbələrinin bütün xəritələri tərtib edilib və yeni su anbarlarının tikintisi gündəlikdə duran məsələdir.

Eyni zamanda vaxtilə sovet dövründə su anbarının yanında Ulu Öndər Heydər Əliyev tərəfindən iki su elektrik stansiyası inşa edilmişdi. Müharibə zamanı düşmən bu stansiyaları da dağıtmışdır. Kəlbəcər və Laçın rayonlarında 30-dan çox su elektrik stansiyası müharibə zamanı və müharibədən sonra ki, onlara bu rayonlardan çıxmağa vaxt verilmişdi, ermənilər onları dağıtmışdılar, onların bərpası gedir. O cümlədən, ilk növbədə, “Suqovuşan-1” və “Suqovuşan-2” Su Elektrik Stansiyalarının bərpası ilə bağlı işlər görülməyə başlanmışdır və artıq bu stansiyalar işlək vəziyyətdədir. Onlar yenidən quruldu, yenidən tikildi. Bu, bir daha bizim gücümüzü və siyasətimizi göstərir. Biz infrastruktur layihələrinin icrası ilə bağlı çox ciddi addımlar atırıq və müharibənin başa çatmasından hələ bir il keçməyib, görün nə qədər böyük işlər görülür. Bu bölgəni elektrik enerjisi və su ilə təmin etmək üçün Suqovuşan qəsəbəsinin xüsusi əhəmiyyəti var. Bu qəsəbənin azad edilməsinin digər önəmli tərəfi, bir daha demək istəyirəm ki, mənəvi-psixoloji üstünlüyümüzün daha da möhkəmləndirilməsidir.

İndi əgər müharibənin xronologiyasına baxsaq, görərik ki, sentyabrın 27-də 6 kənd, Murovdağ silsiləsi, Ağdərə dağları, oktyabrın 3-də isə 8 kənd, o cümlədən Suqovuşan qəsəbəsi və Talış kəndi azad edildi. Oktyabrın 4-də bir çox kəndlər azad edildi, o cümlədən Cəbrayıl şəhəri.

*Ardı 4-cü səh.*

# Mən Suqovuşandayam, mən Şuşadayam,

## Prezident İlham Əliyev Tərtər rayonunun Suqovuşan qəsəbəsində Azərbaycan bayrağını ucaldıb



*Əvvəli 3-cü səh.*

Yəni bu, ordumuza əlavə güc verdi, mənəvi ruh verdi. Bu mənəvi üstünlüyü biz müharibənin son gününə qədər, son dəqiqəsinə qədər saxlamışdıq. Düşmən artıq başa düşməyə başladı ki, onların bütün təbliğatı, bütün yalanları, sadəcə olaraq, uydurmadır. Çünki baxmayaraq ki, düşmənin təbliğatı taktiki geriləmə haqqında gecə-gündüz yalan informasiyalar yayırdı, bu haqda cəfəng məlumatlar ötürürdü. Bu, dünya hərb praktikasında yəqin ki, bir yenilikdir. Onlar orada artıq götürdüyümüz şəhər və kəndlərimizi döyüş gedən kənd və şəhərlər kimi təqdim edirdilər. Ancaq real həyatda, real döyüşlərdə artıq hər kəs hər şeyi görürdü. O cümlədən Ermənistan ordusunda xidmət edən şəxsi heyət görürdü ki, biz qələbə çalırıq, biz qabağa gedirik, bizi heç bir qüvvə dayandıra bilməz. Əgər hərbi nöqteyi-nəzərdən götürülməsi demək olar ki, mümkünsüz sayılan Talış və Suqovuşan Azərbaycan Ordusu tərəfindən götürülübsə, onlar tam yəqin edə bilərdilər ki, bundan sonra da Qələbə salnaməmiz davam edəcək.

Əlbəttə ki, Ermənistan ordusu, şəxsi heyət dərin mənəvi-psixoloji sarsıntı içində idi. Onların gözü qorxmuşdu və əlbəttə, bundan sonrakı dövrdə - oktyabrın 3-dən müharibənin son dəqiqələrinə qədər Ermənistan ordusu qorxu içində idi. Təsadüfi deyil ki, Ermənistan ordusunda on mindən çox fərari olmuşdur. Onlar görürdülər ki, bizim qabağımızda dura bilmirlər. Görürdülər ki, onların hakimiyyəti onlara yalan danışır, onları ölümə göndərir. Mənasız əməliyyatlar həyata keçirir ki, bu əməliyyatlar nəticəsində Ermənistan silahlı qüvvələrinin şəxsi heyəti faktiki olaraq qurban kimi verilir. On min fərarisi olan ordu, əlbəttə ki, müqavimət göstərə bilməzdi.

Bundan sonrakı dövrdə Azərbaycan Ordusunun, Silahlı Qüvvələrimizin şanlı Zəfər yürüşü davam etmişdir. Düzdür, bəzi yerlərdə Ermənistan tərəfi direniş göstərirdi, müqavimət göstərirdi, bəzi yerlərdə bizə çətinliklər yaradırdı. Amma bu, müharibədir. Özü də otuz il ərzində böyük istehkamlar qurmuş tərəf, - bu dağlara baxın, bunlar hamısı təbii istehkamlardır, - əlbəttə ki, onların özlərini müdafiə etmək üçün imkanları var idi. Ancaq artıq bilirdilər ki, bizim qabağımızda dura bilməzlər. On min fərari artıq hər şeyi göstərir.

Bu fərarilərin içində Ermənistanın keçmiş prezidenti Serjik Sarkisyan da var idi. Bu yaxınlarda mənə verilən məlumata görə, o, haradasa Azərbaycan haqqında, Ulu Öndər haqqında öz səviyyəsinə uyğun çirkin sözlər ifadə etmişdir. Birinci fərari elə odur. Çünki o, müharibə zamanı Xankəndiyə soxulmuşdu, guya orada hansısa işlər görəcək. Amma görəndə ki, Azərbaycan Ordusu artıq gəlir və onun qulağından tutub Bakıya gətirə bilər, qorxaqcasına oradan fərari kimi qaçmışdır. Mən ona Serjik Sarkisyan ona görə demirəm ki, onu alçaltmaq istəyirəm, ona görə ki, bu, onun əsl adı və soyadıdır. Bizim arxivlərimizdə bu məlumatlar var. Onun "metirka"sında, yəni doğum haqqında şəhadətnaməsində, onun komsomol biletində Sarkisyan Serjik yazılıbdır. Sonra bunu edib Sarkisyan Serj. Guya "Serj", necə deyərlər, məqbul bir addır.

Bu adam ömrü boyu oğru, cinayətkar, saxtakar, xain, satqın, fərari kimi tanınıb. Serjikin oğurluğu haqqında Ermənistanda bilməyən yoxdur. Bu gün onunla əlbir olan "müharibə qəhrəmanları" artıq ya həbsdədir, ya cəhənnəmdədir. "Tuşonka" satan və artıq cəhənnəmdə yanan, Serjikin sağ əli olan "general" Ermənistan ordusunun və Serjikin əsl simasını göstərir. Müharibə zamanı "tuşonka" satan general hansı sözlərə layiqdir? Serjikin sağ əli olan, müharibə dövründə müdafiə naziri vəzifəsində çalışan hərbi cinayətkar bu yaxınlarda Ermənistanda həbs edildi, oğurluğa görə. Nasaz silahlar alırdı, pullarını da qoyurdu cibinə. Bu haqda bizdə kifayət qədər məlumatlar var, həm müharibədən əvvəl, həm müharibə zamanı hansı əməllərdən çıxırdılar. Ayaqları altında torpaq yanırdı, Azərbaycan Ordusu hər gün irəli gedirdi, Ermənistan müdafiə naziri kontraktlar imzalayıb, nasaz silahlar aldırıb, qiymət fərqini də cibinə qoyurdu. Onlar Serjikin yetirmələridir, onun kimi oğrulardır.

Mən deyəndə ki, Serjik hərbi cinayətkardır, bunu təkcə mən demirəm, bunu bölgə ilə tanış olan bütün qərəzsiz və müstəqil politoloqlar, jurnalistlər deyirlər. Britaniyalı jurnalistə verdiyi müsahibədə demişdi ki, Xocalı soyqırımını şəxsən özü törədib. Bunun da izahatını vermişdi ki, azərbaycanlılar bilməlidirlər, Ermənistan ordusu dinc əhaliyə qarşı silah qaldıra bilər. Bu qanlı cinayətkar Serjik Sarkisyandır. Xain deyirəm, bu, təhqir deyil. O, hər addımbaşı xəyanət edib. Birincisi, çörəyini yediyi Azərbaycan xalqına. İkincisi, onun rəhbəri olan keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin birinci katibi Gevorkova ki, onun yavəri olub, onun qovluq daşıyanı olub. Bu, onun tərcümeyi-halında da var, bəlkə də onu sildirib, amma bizim arxivlərdə var. Çünki onun vəzifələrə təyin olunması Bakıdan keçirdi. Bizim arxivlərdə hər şey var. Serjik Sarkisyan Boris Gevorkovun rəsmən köməkçisi vəzifəsini daşıyırdı, amma faktiki olaraq nökəri, kabab bişirəni və istirahət məclislərinin təşkilatçısı funksiyasını yerinə yetirirdi. Sonra nə oldu? Sonra separatist hərəkat başlayan kimi Serjik Gevorkovu satdı, xəyanət etdi. Bu, ikinci xəyanət. Üçüncü xəyanət onun rəhbəri olan Köçaryana qarşı idi. İndi Ermənistanda bunu bilməyən yoxdur. Serjiki qulağından tutub vəzifələrə gətirən Köçaryan olmuşdur. Bütün vəzifələrə onu o təyin edib. Prezident vəzifəsinə də zorla o təyin etdirib. Halbuki erməni xalqı Serjikə nifrət edirdi. Ondan sonra nə oldu? Heç bir il keçmədi Köçaryanı artıq kənara qoydu, heç telefonlarına da cavab vermirdi. Görün, bu, nə qədər alçaq xislətli bir ünsürdür.

Müharibə ilə bağlı təhlillər onu bir daha göstərir ki, bu müharibənin uduzan tərəfi məhz Serjik Sarkisyan və onun kimilərdir. İndi o, məğlubiyyəti Paşinyanın üstünə atmaq istəyir. Guya Paşinyan günahkardır. Paşinyan 2018-ci ildə hakimiyyətə gəlib. O, cəmi iki il ərzində ordu yarada bilərdi? Yaxud da ki, "möhkəm", "güclü ordu"nu dağıda bilərdi? Bu ordunu yaradan Serjikdir. Serjik Ermənistanda müdafiə naziri olub. Serjik Ermənistanda baş nazir olub. Prezident Administrasiyasının rəhbəri olub, Təhlükəsizlik Nazirliyinin rəhbəri olub. Prezident olub 10 il ərzində. Bu ordunu yaradan Serjik deyil, kimdir? Biz o ordunu məhv etməklə Serjiki və onun kimi ünsürləri məhv etdik. Qoy o, bu məğlubiyyəti Paşinyanın üstünə atmasın. Paşinyan nə edib, o başqa məsələdir. Ancaq biz Serjiki məğlub etmişik, onu diz çökdürmüşük, onun belini qırmışıq. O, bizim qabağımızda, onun qurduğu ordu bizim qabağımızda diz çöküb. Bu gün mən buradayam, Ali Baş Komandan kimi keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisindəyəm. Serjikin kişiliyi çatırsa, gəlsin bura. O, kişilikdən danışır. Qafqazda kişilikdən danışır. Birincisi, Qafqaza bunun millətinin heç bir aidiyyəti yoxdur. Onlar gəlmədirlər, haradan gəliblər, hamı yaxşı bilir. İkincisi, kişilikdən danışırsansa, gəl kişi kimi buraya. Bax, mən burada dayanmışam. Sənin "Madagiz" adlandırdığın Suqovuşanda dayanmışam. Kişiliyin varsa, gəl buraya. Yoxsa orada - İrəvanda oturub banlamaqla özündən qəhrəman düzəldə bilməzsən. Demişəm bir dəfə, hələ sinəsində gəzdirdiyi o dəmir-dümürləri zibil yeşiyinə atsın. Onların heç bir qəpik də qiyməti yoxdur. Ona ən yaxşı cəzanı da erməni xalqı verib, 2018-ci ildə bir təpiklə onu vəzifədən qovub. 2018-ci ildə seçkilərdə növbəti saxtakarlıq törədərək özünə 50 faizdən çox səs yazdırıb. Bu cinayətin şəriki ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosudur. Çünki onlar Serjiklə əlbir olaraq, - bilmirəm, sövdələşmə nəyin əsasında olub, amma təxmin edə bilərəm, - onun qələbəsini tanıyıblar. Bu adamı Ermənistanda kütləvi surətdə lağa qoyurlar, ələ salırlar, ona nifrət edirlər. O, seçkilərdə özünə 50 faizdən çox səs yazdırır, özünü baş nazir təyin etdirir və ATƏT də buna göz yumur, buna razılıq verir. Bax, iki saxtakar - biri ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu, hansı ki, Azərbaycana hər zaman xor baxır, biri də Serjik. Nə oldu, sonra erməni xalqı qalxdı. Erməni xalqı qalxıb bir təpiklə onu vurub atdı çölə. Ondan sonra nə etdi? Ondan sonra məzlumcasına gəlib dedi ki, mən haqlı deyildim, Nikol haqlı idi. Özünə kişi deyən adam belə söz deyər?! Özünə kişi deyən adam bu qədər özünü alçaldar?! Bax, bunu belə heç ediblər. Ondan sonra iki il ərzində ağzına su alıb susmuşdu. Nə qədər onu təhqir etdilər. Nə qədər onun cinayətkar qohumlarını həbs etdilər. Xaricdə gizlənmiş və Kolumbiyanın, ya da Qvatemalanın pasportunu almış bir yaxın qohumu var, adını da dəyişdirmişdi. Necə ki, vaxtilə Serjik özünü "Serj" edib. Qohumu da özünə bir ad verib - "Qonzales". Qulağından tutub gətiriblər və həbs ediblər. Qorxusundan susub, nə desin? Müharibədən sonra yenə baş qaldırır. Müharibə olmasaydı, bu acı məğlubiyyət olmasaydı, Serjik də indi həbsxanada idi. Onun kimi oğru bizim bölgədə bəlkə də hələ doğulmayıb.

Bu gün İrəvanda oturub, öz çirkin ağzını açıb mənim atamın haqqında söz demək ona çox baha başa gələr. Artıq onun qulağından tutub dartmağımıza az qalmışdı. O da yenə haradansa öyrənib, bilib və Xankəndidən qaça-qaça gedib oturub İrəvanda. Bu yaxınlarda keçirilmiş seçkilərdə görün, heç beş faiz səs toplaya bilməyib. Görün, erməni xalqı bu məxluqa nə qədər nifrət edir ki, hətta müharibədə günahkar sayılan iqtidara daha çox səs verdi, nəinki ona. Odur ki, bir də deyirəm, bax, mən buradayam, Suqovuşandayam, mən Şuşadayam, mən Hadrutdayam, mən Xocavənddəyəm, hər yerdəyəm. Siz haradasınız?! Cəhənnəmdə, gorbagor statusla bir yerdə. Vəssalam, qurtardı, bitdi.

Bu sözləri deməklə, təkcə öz çirkin ağzını açaraq cəfəng sözləri deyən, naftalin qoxusu verən bir ünsürə cavab vermirəm. Bütün Ermənistanda onun kimilərə, bütün revanşist hisslərlə yaşayanlara müraciət edirəm - ağlınızı yığın başınıza. "Dəmir yumruq" buradadır, heç yerə getməyib, yerindədir. Bizi əsəbiləşdirməyin, özünüzü yaxşı aparın. Özünüzü yaxşı aparsanız, onda rahat yaşaya bilərsiniz. Yox, əgər bir daha bizə qarşı hər hansı bir təxribat, bəyanat, hərəkət olarsa, heç kimə baxmadan başınızı əzəcəyik. Heç kim də sizi müdafiə edə bilməz.

Bu gün Suqovuşanda və Talış kəndində olarkən bir daha xalqımızın, Silahlı Qüvvələrimizin qəhrəmanlığını görürəm. Buraya gələn hər kəs bunu görür və görəcək. Çünki bu yerləri işğaldan azad etmək, ölümə getmək, bax, xalqımızın böyüklüyünü göstərir.

Bu gün hər iki kənddə dövlət bayrağını ucaldaraq şəhidlərimizin əziz xatirəsinə bir daha ehtiramımı bildirirəm. Azərbaycan xalqına da təşəkkürümü bildirirəm ki, müharibə dövründə bir yumruq kimi birləşib orduya dayaq oldu, mənə arxa oldu və biz bunun hesabına düşmənin başını əzdik, Qələbə çaldıq. Bundan sonra qalib xalq və müzəffər ölkə kimi əbədi yaşayacağıq.

Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

## Tərtərdə "Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su Elektrik stansiyalarının yenidənqurmadan sonra açılışı olub







Oktyabrın 3-də Tərtərdə "Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su Elektrik Stansiyalarının yenidənqurmadan sonra açılışı olub.










AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

"Azərenerji" ASC-nin prezidenti Baba Rzayev dövlət başçısına "Suqovuşan-1" stansiyasında görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, "Suqovuşan-1" Kiçik Su Elektrik Stansiyasında ildə 13,8 milyon kVt/saat elektrik enerjisi istehsal olunacaq. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 2020-ci ilin oktyabrın 3-də işğaldan azad etdiyi Tərtər rayonunun Suqovuşan qəsəbəsindəki "Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su Elektrik Stansiyalarının ümumi gücü 7,8 meqavatdır. Erməni qəsbkarları döyüşlər zamanı 4,8 meqavat gücündə "Suqovuşan-1" və 3 meqavat gücündə "Suqovuşan-2" Kiçik Su Elektrik stansiyalarının yararlı ehtiyat hissələrini söküb daşıyıb, apara bilmədiklərini isə dağıdıblar. Həmçinin döyüşlər zamanı bu elektrik stansiyalarına ciddi ziyan dəyib və nəticədə onlar tamamilə yararsız vəziyyətə düşüb.

Prezident İlham Əliyev "Suqovuşan-2" Kiçik Su Elektrik Stansiyası ilə də tanış oldu.

Diqqətə çatdırılıb ki, hər iki stansiya əsaslı şəkildə yenidən qurulub, o cümlədən onların idarəetmə mərkəzinin binaları və avadanlıqları, stansiyalararası elektrik veriliş xətti tam yenilənib. "Suqovuşan-2" stansiyasında ildə 8,7 milyon kVt/saat elektrik enerjisinin istehsal olunması nəzərdə tutulub.

Dövlət başçısı stansiyaları işə saldı.

Qeyd edək ki, "Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su Elektrik stansiyaları işğaldan azad olunmuş ərazilərin, xüsusilə Suqovuşan və Talış qəsəbələrinin elektrik enerjisi ilə təmin olunmasında mühüm rol oynayacaq. Həmçinin burada istehsal olunan elektrik enerjisi paylayıcı şəbəkənin yeni çəkilən xətləri vasitəsilə digər istiqamətlərə də ötürüləcək.

Sonra Prezident İlham Əliyev Suqovuşan su anbarında görülən işlərlə tanış oldu.

# mən hər yerdəyəm!

## Prezident İlham Əliyev Ermənistan silahlı qüvvələrinin raket hücumları nəticəsində Tərtər şəhərində dağılmış evin əvəzinə tikilən yeni evdə yaradılan şəraitlə tanış olub








Oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin "Smerç" raketləri ilə hücumu nəticəsində Tərtər şəhərinin sakini Sahib İsmayılovun dağılmış evinə baxıb və onun əvəzinə inşa edilən yeni evdə yaradılan şəraitlə tanış olub.

AZƏRTAC xəbər verir ki, Vətən müharibəsi zamanı düşmənin xain atəşi nəticəsində Tərtərdə ümumilikdə 16 mülki şəxs qətlə yetirilib, 63 nəfər yaralanıb. Müharibə zamanı həmçinin Tərtər şəhəri də daxil olmaqla, rayonun 40 yaşayış məntəqəsinə 16 min 277 tank, top, qrad, minomyot mərmisi, 21 qadağan olunmuş raket atılıb. Nəticədə Tərtərdə 82 çoxmərtəbəli yaşayış binasına, 5949 fərdi evə, 184 sahibkarlıq və 301 qeyri-yaşayış obyektinə, 17 məktəbə, 11 uşaq bağçasına, 1 texniki peşə məktəbinə, 1 musiqi məktəbinə, 30 inzibati binaya və 20-yə yaxın mədəniyyət və səhiyyə müəssisəsinə ziyan dəyib.

Sakinləri salamlayan **Prezident İlham ƏLİYEV** dedi: Əvvəlki ev haradadır?

İcra hakimiyyətinin başçısı **Müstəqim MƏMMƏDOV:** Əvvəlki ev buradadır. Oktyabrın 26-da şəhərin mərkəzinə atılan üç "Smerç" raketindən biri buraya düşmüşdü.

**Prezident İlham ƏLİYEV:** "Smerç" düşmüşdü buraya?

**Müstəqim MƏMMƏDOV:** Bəli, "Smerç" düşmüşdü, yan-yana olan bu iki evi dağıtmışdı. Biri də oradadır.

**Prezident İlham ƏLİYEV:** Əvvəlki ev budur?

**Müstəqim MƏMMƏDOV:** Bəli.

**Prezident İlham ƏLİYEV:** Burada yaşayıblar?

**Müstəqim MƏMMƏDOV:** Bəli. Kəlbəcər rayonunun Susuzluq kəndindən.

**Prezident İlham ƏLİYEV:** Buraya mərmi düşəndə harada idiniz?

**Sakin:** Təxminən 15-20 dəqiqə əvvəl sığınacağa getmişdik.

**Prezident İlham ƏLİYEV:** Ümumi 30 mindən çox mərmi düşüb, 16 mini Tərtərə.

**Müstəqim MƏMMƏDOV:** Bəli.

**Prezident İlham ƏLİYEV:** İndi bərpa işləri necə gedir?

**Müstəqim MƏMMƏDOV:** Cənab Prezident, demək olar ki, 62 ev dağılmışdı. Onların 36-sı tamamilə hazırdır, təhvil verilib, 26-da isə son tamamlama işləri yaxın günlərdə başa çatacaq.

**Prezident İlham ƏLİYEV:** Məndəki arayışda göstərilir ki, Tərtərdə bərpa olunan yaşayış fondunun 84 faizi artıq təmin edilib.

**Müstəqim MƏMMƏDOV:** Bəli, tamamilə təmin olunub.

**Prezident İlham ƏLİYEV:** Yəni, bir il ərzində 84 faizi.

**Müstəqim MƏMMƏDOV:** 82 yaşayış binasının hamısı dam örtüyü ilə təmin olunub.

**Prezident İlham ƏLİYEV:** Məktəblər necə? Burada 17 məktəb dağılıb.

**Müstəqim MƏMMƏDOV:** Bəli, 17 məktəb təmir olunub. Sizin sərəncamınızla modul tipli bir məktəb tikilir, hazırdır. 5 saylı şəhər məktəbinin isə artıq layihə-smeta sənədləri hazırlanıb, yaxın günlərdə inşasına başlayacağıq.

**Prezident İlham ƏLİYEV:** Sonra sahibkarlıq obyektləri?

**Müstəqim MƏMMƏDOV:** 184 sahibkarlıq obyekti dağılmışdı, onların da artıq hamısı təmir olunub. 301 qeyri-yaşayış sahəsi dağıdılmışdı. Möhtərəm Prezident, əmlakına dəyən ziyana görə Sizin sərəncamınızla bütün insanlara 6 milyon 202 min manat kompensasiya ödənilib, 545 baş heyvan üçün kompensasiya ödənilib. Ümumilikdə 6 milyon 794 min 200 manat verilib. Hətta əkin sahələrinə ziyan dəyənlərə də ödənilib. Yəni, əkin sahələrində səngər qazılanlara, mərmi düşməsi nəticəsində dağılanlara. Yəni, insanların bütün təbəqələrinin hamısına kompensasiyalar ödənilib.

**Prezident İlham ƏLİYEV:** Nə ilə dolanırsınız, nədir işiniz?

**Sakin:** Dolanışığımız tinkçilikLədir.

**Müstəqim MƏMMƏDOV:** Tingçilik, heyvandarlıq.

**Prezident İlham ƏLİYEV:** Heyvandarlıq? Mal-qara saxlayırsınız?

**Sakin:** Bəli. Ürəyimiz elə Kəlbəcəri deyir, cənab Ali Baş Komandan.

**Prezident İlham ƏLİYEV:** Kəlbəcər kimi gözəl yer bəlkə də dünyada yoxdur.

**Sakin:** Bəli.

**Prezident İlham ƏLİYEV:** Gəlin, burada şəkil çəkdirək.

* * *

Xatirə şəkli çəkdirildi.

* * *

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Sakinlər:** Sağ olun.

* * *

Sonra Prezident İlham Əliyev Tərtər şəhərinin mərkəzində Ermənistan silahlı birləşmələri tərəfindən rayona müxtəlif tipli reaktiv yaylım atəşi sistemləri və artilleriya qurğularından atılmış mərmilərə baxıb.

## Bərdədə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Bərdə rayonuna səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Bərdə şəhərinin mərkəzində Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

## Bərdə Peşə Liseyinin açılışı olub





Oktyabrın 3-də Bərdə Peşə Liseyinin açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Dövlət başçısına məlumat verildi ki, liseyin 5 bloklu tədris korpusunda sinif otaqları, laboratoriyalar, silah kabineti, idman və akt zalları, yeməkxana, emalatxana, iclas zalı və digər zəruri otaqlar vardır. Burada şagirdlərin mükəmməl peşə biliklərinə yiyələnməsi üçün hər cür şərait yaradılıb.

Qeyd edək ki, ölkəmizdə peşə təhsilinin inkişaf etdirilməsi prioritet istiqamət kimi müəyyən olunub. Bu sahədə peşəkar tədris prosesinin qurulması, əmək bazarının, o cümlədən işəgötürənlərin tələbatlarına uyğun ixtisaslar üzrə kadr hazırlığının təmin olunması qarşıda duran əsas vəzifələrdən biridir. Son dövrlər paytaxt Bakı ilə yanaşı, bölgələrdə də yeni peşə təhsili müəssisələri qurulur. Yeni istifadəyə verilən Bərdə Peşə Liseyi də bu istiqamətdə həyata keçirilən layihələrdən biridir.

Xüsusi qeyd olunmalıdır ki, ölkə iqtisadiyyatının inkişafı, yeni iş yerlərinin açılması peşə təhsili sahəsində hazırlanan kadrlara ehtiyacı artırır. Bu istiqamətdə özəl sektorla təhsil sahəsi arasında mövcud mexanizmlərin tətbiqinin gücləndirilməsi də əsas vəzifələrdən biridir. Bu sahədə həyata keçirilən tədbirlər gənclərin müvafiq peşələrə yiyələnərək məşğulluğunun təmin olunmasına, eləcə də müəssisə və təşkilatların ixtisaslı kadrlarla təminatına müsbət təsir göstərir.

## Cəbrayıl şəhər Mərkəzi Xəstəxanasının layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Cəbrayıl şəhər 150 çarpayı yerlik mərkəzi xəstəxanasının layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə ilkin olaraq 500,0 (beş yüz) min manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 4 oktyabr 2021-ci il*

## Cəbrayıl şəhərində məktəb binasının layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Cəbrayıl şəhərində 960 şagird yerlik akademik Mehdi Mehdizadə adına tam orta məktəbin layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 500,0 (beş yüz) min manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 4 oktyabr 2021-ci il*

## "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının yaradılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Ölkəmizin ərazi bütövlüyü təmin olunduqdan sonra Naxçıvan Muxtar Respublikası ilə nəqliyyat-kommunikasiya xətlərinin bərpası və bu istiqamətdə tranzit daşımaların həyata keçirilməsi üçün perspektiv imkanlar yaranmışdır. İşğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma, iqtisadi fəaliyyətin canlanması və nəqliyyat-logistika imkanlarından istifadə regional iqtisadi-ticarət əlaqələrini genişləndirəcəkdir.

Nəzərdə tutulan strateji istiqamətlərin uğurla həyata keçirilməsi üçün bölgədə logistika, ticarət və digər xidmətlərin göstərilməsi, həmçinin qabaqcıl texnologiyalara və "yaşıl enerji" konsepsiyasına əsaslanan rəqabətqabiliyyətli və innovativ sənaye sahələrinin, o cümlədən tikinti materialları istehsalının dəstəklənməsi olduqca mühümdür.

İşğaldan azad olunmuş Şərqi Zəngəzur iqtisadi rayonunun Arazboyu ərazisinin əsasən düzənlik relyefə və həmin bölgənin cənub istiqamətində giriş qapısı mövqeyinə malik olması sənaye parkının yaradılması üçün əlverişli şəraiti təmin edir. Şərqi Zəngəzur iqtisadi rayonunun cənubunda - Cəbrayıl rayonu ərazisində yerləşən tarixi Xudafərin körpülərinin olduğu istiqamətdə sərhəd-gömrük keçid məntəqəsinin açılması da sənaye parkının fəaliyyətə başlaması ilə daha səmərəli olar. Eyni zamanda, Cəbrayıl rayonunda logistika mərkəzinin, müxtəlif xidmət və innovativ sənaye sahələrinin, o cümlədən tikinti materialları istehsalı müəssisələrinin yaradılması işğaldan azad edilmiş digər rayonların da bərpasında faydalı olacaqdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Şərqi Zəngəzur iqtisadi rayonunda, Cəbrayıl rayonu ərazisində "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı yaradılsın.

2. Müəyyən edilsin ki:

2.1. "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı (bundan sonra - Sənaye Parkı) sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastrukturu və idarəetmə qurumları olan, logistika işinin təşkili, müasir texnologiyaların tətbiqi yolu ilə sənaye sahəsində rəqabətqabiliyyətli məhsul istehsalı, emalı (təkrar emalı) və satışı, habelə xidmətlər göstərilməsi üçün istifadə edilən, sahibkarların səmərəli çalışmasına və inkişafına kömək edən ərazidir;

2.2. Sənaye Parkının fəaliyyətinin təşkili, onun idarə edilməsi və inkişafı ilə bağlı tədbirləri Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyi (bundan sonra - Agentlik) həyata keçirir.

3. Sənaye Parkının fəaliyyətinin təşkili və onun ərazisində infrastrukturun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) yaradılması məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulmuş vəsaitdən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə ilkin olaraq 500,0 (beş yüz) min manat ayrılsın.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. Sənaye Parkının fəaliyyəti üçün Cəbrayıl rayonunun Soltanlı kəndi yaxınlığında 200 (iki yüz) hektar torpaq sahəsinin icarəyə vermək hüququ ilə Agentliyin daimi istifadəsinə verilməsini iki ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

5.1. Sənaye Parkının ərazisində infrastrukturun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) yaradılması, həmin ərazidə görüləcək işlərin təşkili və dəstəklənməsi, logistika sisteminin qurulması, sənaye məhsullarının istehsalı, emalı (təkrar emalı) və satışı, habelə sahibkarlıq fəaliyyətinin səmərəli qurulması üçün digər xidmətlər göstərilməsi məqsədilə Agentliyə kömək etsin;

5.2. Sənaye Parkında göstərilən xidmətlər, istehsal və emal (təkrar emal) olunan sənaye məhsulları üzrə prioritet istiqamətlərin müəyyənləşdirilməsini təmin etsin;

5.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Aidiyyəti dövlət orqanları (qurumları) Sənaye Parkının yaradılması və orada işin təşkili, o cümlədən onun ərazisinin minalardan, partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsi, eləcə də bu Fərmanın 5.1-ci bəndində nəzərdə tutulan infrastrukturun yaradılması ilə bağlı Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə zəruri kömək göstərilməsini fəaliyyət istiqamətlərinə uyğun olaraq təmin etsinlər.

7. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 3-cü hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 4 oktyabr 2021-ci il*

# Azərbaycanın müdafiə naziri Tbilisidə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib



Gürcüstanda səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov oktyabrın 4-də Tbilisidəki Heydər Əliyev parkında Ümummilli Liderin abidəsini ziyarət edib.

AZƏRTAC xəbər verir ki, general-polkovnik Zakir Həsənov Ulu Öndər Heydər Əliyevin abidəsi önünə əklil qoyub, dahi şəxsiyyətin xatirəsini ehtiramla yad edib.

Azərbaycanın müdafiə nazirini ölkəmizin Gürcüstandakı səfiri Faiq Quliyev və digər rəsmi şəxslər müşayiət ediblər.

# Gürcüstanda "Eternity-2021" təlimi başlayıb

Tbilisidə Azərbaycan, Türkiyə və Gürcüstan hərbi qulluqçularının iştirakı ilə "Eternity-2021" kompüter dəstəkli komanda-qərargah təlimi başlayıb.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nəzəri və praktiki hissədən ibarət təlimdə üç ölkənin hərbi qulluqçuları və aidiyyəti dövlət qurumlarının nümayəndələri regional iqtisadi layihələrin mühafizəsinin təşkili üzrə tapşırıqları icra edəcəklər.

Təlimə oktyabrın 8-də yekun vurulacaq.

# Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin Hüquqi və siyasi məsələlər komitəsinin iclası keçirilib

Oktyabrın 4-də Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin (QDİƏT PM) Hüquqi və siyasi məsələlər komitəsinin onlayn formatda 58-ci iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, tədbirdə Milli Məclisi QDİƏT PM-dəki Azərbaycan nümayəndə heyətinin rəhbəri Eldar Quliyev və nümayəndə heyətinin üzvü Jalə Əhmədova təmsil ediblər.

Hüquqi və siyasi məsələlər komitəsinin sədri Mixail Yemelyanov (Rusiya) iclası açaraq gündəliyi təqdim edib. Əvvəlcə parlamentarilər komitənin 57-ci toplantısının protokolunu təsdiqləyiblər. Sonra Roberta Alma Anastase (Rumıniya) "Qanunverici prosesin effektivliyinin və parlament fəaliyyətinin şəffaflıq səviyyəsinin artırılması məqsədilə rəqəmsallaşmanın və innovativ inkişafın sürətləndirilməsi" mövzusunda məruzəni təqdim edib.

Məruzəçidən sonra Azərbaycan nümayəndə heyətinin üzvü Jalə Əhmədova çıxış edib. O, Azərbaycanda həyata keçirilən rəqəmsallaşma və şəffaflıq siyasəti, e-hökumət, "ASAN xidmət", elektron məhkəmə sistemləri haqqında məlumat verib. Bildirilib ki, rəqəmsal innovasiyaların tətbiqi, vətəndaş məmnunluğunun səviyyəsinin qaldırılması kimi məsələlər Azərbaycanda dövlət siyasətinin prioritetlərindəndir.

İclas iştirakçıları məruzəni və məruzə üzrə komitənin tövsiyələrini təsdiqləyiblər, qurumun cari fəaliyyətini və gündəlikdəki digər məsələləri nəzərdən keçiriblər, müvafiq qərarlar qəbul ediblər. Komitənin növbəti iclasının tarixi, yeri və gündəliyi müəyyənləşdirilib.

Həmçinin komitədə təşkilati məsələlər həll edilib. Belə ki, Roberta Alma Anastase (Rumıniya) komitənin sədri, Tülay Kaynarca (Türkiyə) komitə sədrinin müavini seçilib.

İclasın yekununda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin Baş katibi Asəf Hacıyev komitə sədrliyini təhvil verən Mixail Yemelyanova (Rusiya) təşəkkürünü bildirib, yeni seçilən komitə rəhbərliyinə uğurlar arzulayıb.

# Nazir Ceyhun Bayramov Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinin təsis iclasında çıxış edib

Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinin təsis iclası keçirilir. Tədbirdə Hərəkata üzv dövlətlərin gənclər təşkilatlarını təmsil edən 100-dən çox gənc iştirak edir. İclasın açılışında xarici işlər naziri Ceyhun Bayramov çıxış edib.




Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidmətindən bildirilib.

Ceyhun Bayramov çıxışında Qoşulmama Hərəkatının 60 illik yubileyini qeyd etdiyimiz bu əlamətdar ildə qurumun sədri olan Azərbaycanın təşəbbüsü ilə Gənclər Şəbəkəsinin təsis edilməsinin tarixi bir hadisə olduğunu bildirib və Hərəkata üzv dövlətlərin Gənclər Şəbəkənin fəaliyyətinə böyük ümidlər bəslədiklərini qeyd edib.

Nazir diqqətə çatdırıb ki, Gənclər Şəbəkəsinin təsis edilməsi hələ Qoşulmama Hərəkatının Bakı Zirvə Görüşü zamanı Hərəkata üzv dövlətlərin dövlət və hökumət başçıları tərəfindən qərara alınıb. Onun sözlərinə görə, məhz bu Şəbəkə vasitəsilə quruma üzv dövlətlərin gəncləri öz davamlı inkişaflarının təmin edilməsi istiqamətində qarşılaşdıqları çətinliklər və həmin çətinliklərin vətəndaşları olduqları ölkələrin hökumətləri tərəfindən birgə şəkildə necə həll edilə biləcəyi barədə fikir mübadiləsi aparmaq imkanı əldə edəcəklər.

Azərbaycan Respublikası Prezidentinin Qoşulmama Hərəkatının sədri qismində irəli sürdüyü təşəbbüslər əsasında COVID-19 pandemiyasına qarşı mübarizə sahəsində Hərəkata üzv dövlətlərin nümunəvi həmrəylik nümayiş etdirdiyini bildirən xarici işlər naziri Gənclər Şəbəkəsinin fəaliyyətinin bu həmrəyliyə əlavə töhfə verəcəyini vurğulayıb.

Çıxışının sonunda 2021-ci il oktyabrın 11-12-də Belqrad şəhərində keçiriləcək Qoşulmama Hərəkatının 60-cı ildönümünə həsr olunmuş yüksəksəviyyəli yubiley tədbirindən bəhs edən Ceyhun Bayramov həmin tədbirdə iştirak edəcək Hərəkata üzv dövlətlərin yüksəksəviyyəli hökumət rəsmilərinə təqdim olunması üçün Gənclər Şəbəkəsinin üzvlərini Hərəkatın gələcəyinə dair tövsiyələr hazırlamağa dəvət edib.

Gənclər Şəbəkəsinin təsis iclası 2 gün davam edəcək və iclas müddətində iştirakçı gənclər Şəbəkənin gələcək idarəçiliyi və həyata keçiriləcək tədbirlərə dair fikir mübadiləsi apararaq müvafiq qərarlar qəbul edəcəklər.

Qeyd edək ki, bu il 60-cı ildönümünü qeyd edən Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinin məhz Azərbaycanın Hərəkata sədrlik etdiyi dövrə təsadüf etməsi üzv dövlətlər tərəfindən ölkəmizin bu mötəbər quruma ən böyük tarixi töhfələrindən biri hesab olunur. Azərbaycan Respublikasının Qoşulmama Hərəkatının sədrliyi başa çatana qədər Şəbəkəyə rəhbərliyi Azərbaycanın nümayəndəsi həyata keçirəcəkdir.

# Leyla ABDULLAYEVA: "Azərbaycan və İran sərhədi yaxınlığında hər hansı üçüncü qüvvələrin olması ilə bağlı fikirlərin heç bir əsası yoxdur"

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva İran xarici işlər nazirinin müsahibəsində Azərbaycanla bağlı söylədiklərinə münasibət bildirib.

AZƏRTAC xəbər verir ki, bununla bağlı yerli KİV-in sualını cavablandıran Leyla Abdullayeva deyib:

- İlk növbədə vurğulamaq istərdik ki, İran xarici işlər naziri Hüseyn Əmir Abdullahianın yerli televiziya kanalına müsahibəsində qeyd etdiyi kimi, iki ölkə xalqları arasında münasibətlər ən yüksək səviyyədədir. Azərbaycan və İran arasında əlaqələr möhkəm tarixi bağlar, dostluq və əməkdaşlıq üzərində qurulub.

Müsahibə zamanı səsləndirilən bəzi fikirlərlə bağlı aşağıdakıları qeyd etmək istərdik.

Azərbaycan və İran sərhədi yaxınlığında hər hansı üçüncü qüvvələrin olması, bu qüvvələrin təhrikedici cəhdləri ilə bağlı iddiaları qəbul etmirik, çünki bu fikirlərin heç bir əsası yoxdur. Ümumiyyətlə, Azərbaycan ərazisində nə dövlətimizə, nə də qonşu ölkələrə təhdid doğura biləcək hər hansı qüvvələrin, o cümlədən terrorçu ünsürlərin mövcudluğu müzakirə mövzusu belə ola bilməz. Əfsuslar olsun ki, hələ 44 günlük Vətən müharibəsi zamanı bəzi tərəflər tamamilə əsassız şəkildə bu kimi iddiaları səsləndirirdi. O zaman da bəyan etmişdik, indi də təkrar edirik ki, bu kimi iddiaların heç bir əsası yoxdur və bugünədək Azərbaycan tərəfinə bu xüsusda heç bir dəlil təqdim edilməyib.

Beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı Azərbaycanın hər zaman rəhbər tutduğu fundamental prinsiplərdən biridir. Məlumdur ki, məhz Azərbaycan, ərazilərinin bir hissəsinin hərbi işğalından və beynəlxalq sərhədlərinin pozulmasından onilliklər ərzində əziyyət çəkib. O cümlədən bizim İran ilə sərhədimizin 130 kilometrdən çox hissəsi uzun illər ərzində Ermənistanın işğalı altında olub. Təəssüf ki, bu illər ərzində dost İran dövlətinin sərhədimizin bir hissəsinin işğal altında olması ilə bağlı indiki kimi qəti reaksiyasını eşitməmişik.

Ümumiyyətlə, Azərbaycan bütün dövlətlərlə münasibətləri məhz birlərinin beynəlxalq sərhədlərinə hörmət əsasında qurulmasının tərəfdarıdır, bu, ölkəmizin dəyişilməz mövqeyidir. Məlumdur ki, tərəfimizdən, o cümlədən Ermənistan ilə münasibətləri elə bu fundamental beynəlxalq hüquq prinsipi əsasında normallaşdırmağa və sərhədlərin delimitasiyası üzrə danışıqlara başlamağa hazır olduğumuzu bəyan etmişik. Azərbaycan və Ermənistan sərhədlərinin delimitasiyası prosesi ikitərəfli məsələdir və son zamanlar qarşı tərəfdən bu xüsusda müsbət siqnalların verilməsi prosesin konstruktiv istiqamətdə inkişafına ümid yaradır.

Kənar qüvvələrin Azərbaycana müdaxiləsi fikrinə gəldikdə vurğulamaq istərdik ki, Azərbaycan Respublikası hər zaman milli maraqlarına əsaslanan müstəqil xarici siyasət həyata keçirib və 30 il ərzində atdığı konkret addımları ilə bunu dəfələrlə sübut edib. Qonşu dövlətlərlə dostluq və mehriban qonşuluq münasibətlərinin inkişaf etdirilməsi xarici siyasətimizin əsas prioritet məsələlərindəndir və tərəfimizdən bu istiqamətdə davamlı addımlar atılmaqdadır.

Onu da bildirmək istərdik ki, Azərbaycan islam həmrəyliyi məsələsinə böyük həssaslıqla yanaşır və məlum olduğu kimi, İslam Əməkdaşlıq Təşkilatında (İƏT) fəal mövqeyi ilə seçilir. Ölkəmiz son onilliklər ərzində Azərbaycan ərazisində islam tarixinə və mədəniyyətinə məxsus irsin dağıdılması, talan edilməsi və təhqir edilməsi ilə bağlı məsələni diqqət mərkəzində saxlayıb və bu məsələdə bizim haqq mövqeyimizin İƏT üzv ölkələri tərəfindən dəstəklənməsini yüksək qiymətləndiririk.

Hesab edirik ki, Azərbaycan ərazilərinin işğalına son qoyulması, həmin bölgədə Ermənistanın qanunsuz əməllərinə, o cümlədən böyük həcmdə silah-sursat cəmləşdirməsi, qeyri-qanuni iqtisadi və digər əməllər, narkotik qaçaqmalçılığı, terrorçuların hazırlanması, islam dini və mədəniyyəti abidələrinin təhqir və məhv edilməsi hallarının dayandırılması və 30 illik həsrətdən sonra azərbaycanlı məcburi köçkünlərin öz dədə-baba torpaqlarına qayıtması, regionda sabitliyin və təhlükəsizliyin təmin olunması İran İslam Respublikasının maraqlarına cavab verən şərait olmalıdır.

# Kəlbəcərdə radio və televiziya yayımı təmin olunub, Cəbrayılda intensiv işlərə başlanılıb

Cəbrayılın erməni işğalından azad olunmasından 1 il ötür.

Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" 2020-ci il 29 oktyabr tarixli Fərmanının icrası ilə əlaqədar işğaldan azad olunmuş ərazilərdə infrastrukturun, o cümlədən radio-televiziya yayım stansiyalarının işinin bərpası istiqamətində işlər davam etdirilir. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən AZƏRTAC-a bildirilib ki, işğaldan azad olunmuş ərazilərdə radio-televiziya yayımlarının bərpası ilə bağlı nazirliyin "Radio-Televiziya Yayımı və Peyk Rabitəsi" İB (Teleradio) tərəfindən Kəlbəcər şəhərində 17 metrlik yeni metal qüllə istismara verilib. Bununla da Kəlbəcər şəhəri və rayonun ətraf 15 kəndində 8 TV və 1 radionun yayımı təmin olunub.

Qeyd edək ki, Xocavənd rayonunun Hadrut qəsəbəsinin Şahyeri kəndi ərazisində yerləşən Şahyeri stansiyasının işinin bərpası istiqamətində də işlərə başlanılıb. Cari ilin sonunadək stansiyanın istismara veriləcəyi gözlənilir. Sözügedən stansiyanın istismara verilməsi nəticəsində Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisində radio-televiziya yayımı təmin olunacaq.

Buna paralel olaraq, işğal dövründə ermənilər tərəfindən tamamilə dağıdılaraq talan edilmiş Qubadlı stansiyasının infrastrukturunun yenidən qurulması və Zəngilan rayonu ərazisində yerləşən mövcud Mincivan stansiyasında müvafiq rekonstruksiya işləri görülməklə bu rayonların ərazilərində radio-televiziya yayımlarının bərpası üzrə müvafiq işlər aparılır.

Qeyd edək ki, Şuşa Radio-Televiziya Yayım Stansiyasında müvafiq avadanlıqlar quraşdırılaraq 2020-ci il dekabrın 31-dən etibarən radio-televiziya yayımının təşkili Şuşa, Xankəndi şəhərləri və Xocalı, Ağdam, Bərdə rayonları, eləcə də ətraf yaşayış məntəqələrində bərpa edilib.

Sonda xatırladaq ki, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində rabitə xidmətlərinin təşkilinə dair Fəaliyyət Proqramı"na uyğun olaraq azad olunmuş ərazilərdə digər istiqamətlərdə də işlər davam etdirilir.

# Ali Rza YILDIZ: "Qardaş Azərbaycan hər zaman Türkiyənin yanında olub"

Oktyabrın 4-də Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev İctimai-Siyasi Proseslər Beynəlxalq Araşdırma Mərkəzinin (İSBAM) dəvəti ilə ölkəmizdə səfərdə olan İstanbul Media Başqanı Ali Rza Yıldız və onun yardımçısı, İstanbul Çəkməköy Əsnaf və Sənətkarlar Dərnəyinin başqanı Gökhan Balcı ilə görüşüb.



Bu barədə AZƏRTAC-a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Görüşdə oktyabrın 4-nün ölkəmizin və türk-islam dünyasının tarixində xüsusi yeri olduğunu vurğulayan Adil Əliyev keçən ilin məhz bu günündə Azərbaycan Ordusunun Cəbrayıl rayonunu işğaldan azad etdiyini diqqətə çatdırıb. Qonaqlara hazırda birinci ildönümünü qeyd etdiyimiz Vətən müharibəsi barədə ətraflı məlumat verib. Ermənistanın 30 illik təcavüzünə son qoyulduğunu, düşmənə döyüş meydanında çox böyük zərbə vurulduğunu bildirib.

Milli Məclis Sədrinin müavini qeyd edib ki, 1993-cü ilin avqustunda Ermənistan silahlı qüvvələrinin işğal etdiyi Cəbrayıl rayonu erməni vandalları tərəfindən tamamilə dağıdılıb. Ermənistan təcavüzkar siyasətini işğal altında saxladığı ərazilərdəki maddi mədəniyyət abidələrinə də tətbiq edib, tarixi abidələrə və dini ziyarətgahlara qarşı dağıdıcı və təhqiramiz siyasət həyata keçirib. Dini məbədlərimizi, məscidlərimizi tövləyə çevirib. İnanclara qarşı bu cür hörmətsizlik heç bir ölçüyə sığmır.

Adil Əliyev bildirib ki, işğal nəticəsində rayona 13,928 milyard ABŞ dolları məbləğində ziyan dəyib. Cəbrayıllı məcburi köçkünlər 27 il ərzində öz ata-baba yurdlarını tərk edərək respublikanın 58 rayonundakı 2000-dək yaşayış məntəqəsində, o cümlədən qaçqın düşərgələrində, yük vaqonlarında və yataqxanalarda məskunlaşmaq məcburiyyətində qalıblar.

Qonaqlara bildirilib ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Cəbrayıl işğaldan azad olunduqdan, Vətən müharibəsi Azərbaycanın Qələbəsi ilə başa çatdıqdan sonra Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva 2020-ci il noyabrın 16-da işğaldan azad olunmuş Cəbrayıl rayonuna gedərək orada üçrəngli bayrağımızı dalğalandırıblar.

Görüşdə İSBAM-ın sədri Samir Adıgözəlli təşkilatın fəaliyyəti barədə geniş məlumat verib, Vətən müharibəsində informasiya cəbhəsində apardıqları savaşdan danışıb. Azərbaycanda baş verənlərin qardaş ölkənin mediasında önəmli yer tutduğunu, Ermənistanın təcavüzünü dünyaya çatdırmaq üçün fasiləsiz fəaliyyət göstərdiklərini bildirib.

Səmimi qəbula görə təşəkkür edən İstanbul Media Başqanı Ali Rza Yıldız qardaş Azərbaycanın hər zaman Türkiyənin yanında olduğunu deyib, bu yay Türkiyədə baş verən yanğınlar zamanı qardaş köməyinə gələn azərbaycanlılara ölkəsində çox böyük sevgi və hörmətin olduğunu vurğulayıb.

Ali Rza Yıldız media qurumlarının rəhbəri olaraq münasibətlərimizin hər zaman möhkəm qalması üçün çalışdıqlarını, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində var qüvvələrini səfərbər etdiklərini bildirib.

Görüşdə bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Bakıda Yaponiya-Azərbaycan investisiya forumu keçirilib

Oktyabrın 4-də Bakıda Yaponiya-Azərbaycan investisiya forumu keçirilib.



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) prezidenti Məmməd Musayev bildirib ki, 8 Noyabr - Zəfər Günündən ötən qısa müddətdə Prezident İlham Əliyevin rəhbərliyi ilə başlamış quruculuq işləri uğurla davam edir. Azərbaycan azad edilmiş torpaqlarında dünyanın ən son texnoloji uğurlarını tətbiq edərək, "ağıllı kənd", "ağıllı şəhər" layihələrini sürətlə həyata keçirir. Qarabağda və Şərqi Zəngəzurda müasir şəhərsalma standartlarına uyğun quruculuq işləri, iqtisadiyyatın bərpa edilməsi və dirçəldilməsi üçün böyük investisiya imkanları yaradılır.

"Heç şübhəsiz ki, bu imkanlar barədə bugünkü Azərbaycan-Yaponiya İnvestisiya Forumunda iştirak edən investorlara da məlumat veriləcək. Yaponiya şirkətləri Azərbaycanda neft-qaz və energetika sənayesində aktiv fəaliyyətə, ölkəmizdə kommunikasiyaların yenidən qurulması və təchizatı, ekologiya, infrastruktur, Azərbaycan mütəxəssislərinin təlimi və sair sahələrdə yaxından iştirak edirlər. 2020-ci ilin yekunlarına görə, Azərbaycanla Yaponiya arasında ticarət dövriyyəsi 200 milyon ABŞ dollarıdır", - deyə Məmməd Musayev vurğulayıb.

M.Musayev qeyd edib ki, ASK müxtəlif beynəlxalq təşkilatlar və investorlarla əlaqələr yaratmaq imkanlarından geniş istifadə edir. Yapon investorlarının təsis etdiyi "TET International Development" şirkəti Azərbaycan Sahibkarlar Konfederasiyasının fəal üzvlərindən biridir. Son iki ildə TET şirkəti Zaqatala, Oğuz, Şəki və Tovuz rayonlarında 4 tütün emalı müəssisəsi açaraq ümumilikdə 10 milyon ABŞ dollarından artıq investisiya yatırıb.

Forumda Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev bildirib ki, bir neçə böyük şirkət Qarabağa vəsait ayıracaq. İşğaldan azad edilmiş torpaqlarımızda artıq bir neçə obyektə maliyyə yardımının göstərilməsinin texniki mərhələsinə başlanılıb.

KOBİA-nın İdarə Heyəti sədrinin birinci müaivni Natiq Həsənov, Aqrar Kredit və İnkişaf Agentliyinin sədr müavini Leyla Məmmədova Azərbaycanla Yaponiya arasında aparılan iqtisadi əlaqələri yüksək qiymətləndiriblər.

Yapon "TET International Development" şirkətinin rəhbəri Taro Savada Yaponiyada Azərbaycan məhsullarının satış mərkəzinin açılmasının planlaşdırıldığını deyib.

O bildirib ki, hazırda Azərbaycanın təbii məhsulları, fındıq, şərab, zeytun yağları Yaponiyaya ixrac edilir. "Azərbaycan məhsullarının satışı Yaponiyanın "e-kommersiya" saytı vasitəsilə həyata keçirilir. Biz rəsmi olaraq Azərbaycan məhsullarını Yaponiyaya ixrac edən ilk şirkətik. Azərbaycanın satış mərkəzini məhz Tokioda açmağı planlaşdırırıq", - deyə şirkət rəhbəri qeyd edib.

Qeyd edilib ki, bu il sentyabrın əvvəlində yapon investorlarının ilk qrupu ölkəmizə biznes səfəri edib. Azərbaycan Sahibkarlar Konfederasiyası onları ölkəmizin investisiya imkanları ilə tanış edib və Şəki, Zaqatala rayonlarında keçirilən görüşlərin təşkilində dəstək verib. Görüşlərin nəticəsi olaraq, bəzi qeyri-neft sektoru məhsullarının Yaponiyaya ixracı barədə ilkin razılıqlar əldə olunub, eyni zamanda, qonaqları maraqlandıran sahələrlə bağlı suallara cavablar verilib.

Sonra Azərbaycan-Yaponiya arasında Anlaşma Memorandumu imzalanıb.

# Şəhid ailələri və müharibə əlillərinə, Vətən Müharibəsi Qəhrəmanlarına mənzillərin sənədləri təqdim edilib

Dünən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən daha 50 şəhid ailəsi, müharibə əlili və Vətən Müharibəsi Qəhrəmanına mənzillərin sənədləri təqdim edilib.



AZƏRTAC xəbər verir ki, tədbirdə əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun ötən il Vətən müharibəsində əldə etdiyi möhtəşəm tarixi Zəfərdən bəhs edib. 30 ilə yaxın Ermənistanın işğalı altında qalmış doğma torpaqlarımızın azad edildiyini, bu gün həmin ərazilərimizdə böyük quruculuq işlərinin aparıldığını diqqətə çatdırıb.

Nazir müavini bildirib ki, müharibədən sonrakı dövrdə şəhid ailələrini, müharibə iştirakçılarını, müharibədə yaralanmış hərbçiləri, müharibə əlillərini, erməni terrorundan zərər çəkənləri əhatə edən çevik və genişmiqyaslı sosial dəstək tədbirləri həyata keçirilir. Eyni zamanda, şəhid ailələrinin, müharibə əlillərinin mənzil və fərdi evlə təminatı proqramı dəfələrlə genişlənib. Dövlət başçısının 2021-ci il 25 yanvar tarixli sərəncamı 2014-2019-cu illərdə uçota alınmış şəxslərə və 2020-ci ildə hərbi əməliyyatlarda, o cümlədən Vətən müharibəsində şəhid olanların ailələri və əlillərinə 2021-2025-ci illərdə mərhələli şəkildə 11 min mənzil və fərdi ev təqdim edilməsini nəzərdə tutur. O cümlədən 2021-ci ildə onlara 3 minədək mənzil və fərdi ev verilməsi işləri aparılır ki, bu da mənzil və fərdi evlə təminat proqramının 2018-ci ilə nisbətən 5 dəfə genişləndiyini göstərir.

Eyni zamanda, Prezident İlham Əliyevin 2021-ci il 25 avqust tarixli sərəncamına əsasən Vətən Müharibəsi Qəhrəmanlarının və onların ailə üzvlərinin də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən mənzillə təminatına başlanıb. Bu gün onlardan daha bir qrupu da mənzillə təmin edilib.

A.Əliyev 2021-ci ilin planı üzrə artıq 1650 mənzilin şəhid ailələri və müharibə əlillərinə, habelə Vətən Müharibəsi Qəhrəmanlarına verildiyini, ümumilikdə indiyədək bu kateqoriyadan olanlara 11 minə yaxın mənzil və fərdi ev təqdim edildiyini diqqətə çatdırıb. Bildirib ki, müharibə əlillərinin minik avtomobilləri ilə təminatı tədbirləri də uğurla davam edir. 2018-2020-ci illərdə onlara 1300-dək, bu ilin ötən dövründə isə daha 150 avtomobil, ümumilikdə indiyədək 7350 avtomobil verilib.

Mənzillə təmin edilən şəhid ailələri, müharibə əlilləri və Vətən Müharibəsi Qəhrəmanları onlara göstərilən yüksək diqqət və qayğıya, sosial təminatlarının gücləndirilməsi məqsədilə aparılan ardıcıl işlərə, bu gün yeni mənzillə təmin olunduqlarına görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

Tədbirdə iştirak edən Vətən Müharibəsi Qəhrəmanı, polkovnik Elnur Qəbədov deyib ki, onun rəhbərlik etdiyi hərbi hissə Vətən müharibəsi dövründə Mingəçevir şəhərinin düşmənin hava hücumu vasitələrindən qorunması üçün döyüş tapşırığını layiqincə icra edib. Həmçinin ön xətt bölmələrinin, digər qoşun növlərinin irəliləməsinə mane olan düşmənin hava hücumu vasitələri məhv edilib: "Rəhbərlik etdiyim hərbi hissə tərəfindən düşmənin iki ədəd SU-25 döyüş təyyarəsi, bir neçə pilotsuz aparatı və Mingəçevir üzərinə atılan raketləri məhv edildi. Aparılan uğurlu döyüş əməliyyatları nəticəsində Prezident İlham Əliyevin sərəncamı ilə Vətən Müharibəsi Qəhrəmanı adına layiq görüldüm. Bu gün isə mənə üçotaqlı mənzilin sənədləri təqdim olundu. Mənzil Sumqayıt şəhərindədir. Diqqət və qayğıya görə ölkə başçısına minnətdaram. Bir hərbçi olaraq Ali Baş Komandanın Vətənimizin ərazi bütövlüyü, suverenliyi uğrunda verdiyi bütün döyüş tapşırıqlarını yerinə yetirməyə hazıram".

Həm şəhid, həm də qazi atası olan Amil Zalov övladları ilə qürur duyduğunu bildirib və dövlət qayğısından məmnunluğunu ifadə edib: "Vətən üçün iki övlad böyütdüm. İkisi də xüsusi təyinatlı qüvvələrin mənsubu idi. Böyük oğlum Nicat Zalov Füzuli rayonu istiqamətində gedən döyüşlərdə ağır yaralanıb, hazırda müalicəsini davam etdirir. Kiçik oğlum Fəqan Zalov Murovdan başlayaraq Xocavəndə qədər 44 gün ərzində döyüşüb. O, Ermənistanın kapitulyasiyasına saatlar qalmış - noyabrın 9-da şəhid olub. Ölkə başçısının sərəncamı ilə Fəqana Vətən Müharibəsi Qəhrəmanı adı verilib. Mən övladlarımla fəxr edirəm. Qürur duyuram ki, Vətən üçün belə qəhrəman övladlar böyütmüşəm.

Dövlət tərəfindən şəhid ailəsi olaraq hər cür qayğı ilə əhatələnmişik. Bu gün bizə üçotaqlı mənzilin sənədləri təqdim olundu. Mənzil Sumqayıt şəhərindədir. Ali Baş Komandan, Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya bizə göstərilən yüksək diqqət və qayğıya görə minnətdaram".

Vətən Müharibəsi Qəhrəmanı, şəhid mayor Elbrus Bayramovun həyat yoldaşı Gültəkin Bayramova ona Abşeron rayonunda yerləşən mənzilin sənədlərinin təqdim olunduğunu bildirib.

G.Bayramova deyib: "Həyat yoldaşım Elbrus Bayramov ötən il oktyabrın 2-də Füzuli rayonu istiqamətində gedən döyüşlərdə şəhid olub. Nə qədər çətin olsa da, bir şəhid yoldaşı olaraq onunla fəxr edirəm. Bütün şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə isə şəfa arzu edirəm. Dövlətimiz belə çətin günlərdə şəhid ailələrini diqqətdən kənarda saxlamır. Buna görə də ölkə başçısına minnətdarlığımı bildirirəm".

# Azad edilmiş ərazilərdə kənd təsərrüfatının yenidən qurulması və inkişafında Belarusun iştirakı müzakirə olunub

## Kənd təsərrüfatı sahəsində Azərbaycan-Belarus İşçi qrupunun 1-ci iclası keçirilib

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Belarus Respublikasının Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi arasında kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi sahəsində Azərbaycan-Belarus İşçi qrupunun 1-ci iclası keçirilib.



Onlayn iclasda Azərbaycan tərəfdən İşçi qrupun həmsədri, kənd təsərrüfatı nazirinin müavini Elçin Zeynalov, Belarus tərəfdən İşçi qrupun həmsədri, kənd təsərrüfatı və ərzaq nazirinin müavini İqor Brılo, hər iki ölkənin müxtəlif dövlət qurumlarının nümayəndələri iştirak ediblər.

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə Azərbaycanda kənd təsərrüfatına dövlət dəstəyi, aqrar sahədə aparılan islahatlar, Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminin tətbiqi, aqrar xidmətlərin elektronlaşdırılması barədə görüş iştirakçılarına ətraflı məlumat verilib. Bildirilib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən son illərdə qeyri-neft sektoruna göstərilən yüksək diqqət nəticəsində aqrar sektor yeni inkişaf mərhələsinə qədəm qoyub və bu istiqamətdə yeni strateji inkişaf hədəfləri müəyyən edilib. Onlayn iclasda Azərbaycanın aqrar sektorunun perspektivləri, hökumətin aqrar sahədə prioritetləri, eləcə də bu sahədə modernləşmə, ixracın inkişafı və kənd təsərrüfatına maliyyə dəstəyi ətrafında fikir mübadiləsi aparılıb. Həmçinin Azərbaycan və Belarus arasında kənd təsərrüfatında hazırkı vəziyyət, eləcə də qlobal pandemiyanın bu sektora təsiri barədə müzakirələr aparılıb. Azərbaycanda hökumətin həyata keçirdiyi qabaqlayıcı tədbirlər nəticəsində kənd təsərrüfatının ölkə iqtisadiyyatında ən az ziyan çəkmiş sektor olduğu diqqətə çatdırılıb.

İşçi qrupun iclasında iki ölkə arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq xüsusi müzakirə mövzusu olub. Bildirilib ki, Belarus ilə Azərbaycan arasında iqtisadiyyatın bütün sahələrində olduğu kimi, kənd təsərrüfatı sahəsində də əlaqələr inkişaf edir.

Tədbirdə Azərbaycan və Belarus arasında aqrar sahədə texnologiya transferi və birgə pilot layihələrin həyata keçirilməsi, kənd təsərrüfatı məhsullarının idxal-ixrac dövriyyəsinin artırılması, ölkəmizdə aqrar sahəyə investisiyaların cəlbi, bitkiçilik, toxumçuluq, heyvandarlıq və baytarlıq, kənd təsərrüfatı təhsili, qida təhlükəsizliyi sənayesi sahələrində əməkdaşlıq məsələlərinə toxunulub. Həmçinin işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının yenidən qurulması və inkişafı prosesində Belarusun iştirakı məsələləri ətrafında müzakirələr aparılıb. Vurğulanıb ki, iki ölkə arasında kənd təsərrüfatı sahəsində əlaqələrin genişləndirilməsi üçün böyük potensial var.

Hər iki tərəf əməkdaşlıqda maraqlı olduğunu bildirib və gələcək əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

# Son sutkada Azərbaycanda koronavirus infeksiyasından 835 nəfər sağalıb

Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına son sutkada 391 yoluxma faktı qeydə alınıb, 835 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 11 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 486 min 378 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 465 min 446 nəfər müalicə olunaraq sağalıb, 6 min 584 nəfər vəfat edib. Aktiv xəstə sayı 14 min 348 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 4 min 962, dünənə qədər isə ümumilikdə 4 milyon 892 min 127 test icra olunub.

# Azərbaycanda COVID-19 əleyhinə iki doza peyvənd vurduranların sayı 4 milyona yaxınlaşıb

Oktyabrın 4-də Azərbaycanda 1061 nəfər yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə vaksinasiya olunub.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, gün ərzində birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 232, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 829 nəfər təşkil edib.

Azərbaycanda dünənə qədər vurulan vaksinlərin ümumi sayı 8 milyon 738 min, birinci mərhələ üzrə peyvənd olunanların ümumi sayı 4 milyon 808 min 374, ikinci mərhələ üzrə vaksinasiya edilənlərin sayı 3 milyon 929 min 626 nəfər təşkil edir.

# Azərbaycanın turizm brendi Rusiya qatarlarında

Azərbaycan Turizm Bürosu Rusiyanın "Aeroexpress" şirkəti ilə əməkdaşlığa başlayıb.

Dövlət Turizm Agentliyindən AZƏRTAC-a bildirilib ki, əməkdaşlıq çərçivəsində "Aeroexpress" qatarları üzərində və vaqonların daxilində, eləcə də kassa bölməsində sərnişinləri ölkəmizi kəşf etməyə çağıran turizm brendi vizualları və həştəqlər yerləşdirilib.

Bundan əlavə, Domodedevo və Şeremetyevo beynəlxalq hava limanlarında yerləşən dəmir yolu vağzallarında Azərbaycanın zəngin turizm təkliflərini əks etdirən videotəqdimat nümayiş etdirilir. Əməkdaşlığın 5 ay müddətində davam etdirilməsi planlaşdırılıb.

Yeni başladılan əməkdaşlıq haqqında danışan Azərbaycan Turizm Bürosunun Baş icraçı direktoru Florian Zenqstşmid vurğulayıb ki, Rusiyanın ən işlək hava limanları ilə paytaxt mərkəzi arasında hərəkət edən "Aeroexpress" sərnişinlərini hədəf götürən kampaniya Azərbaycana turizm axınını artırmağa xidmət edir.

Qeyd edək ki, Rusiyanın 2005-ci ildə əsası qoyulan "Aeroexpress" şirkəti Moskva şəhəri ilə Domodedevo, Şeremetyevo və Vnukovo hava limanları arasında sərnişindaşıma xidmətini həyata keçirir.

2019-cu ildə "Aeroexpress" şirkətinin sərnişin sayı 12,2 milyon nəfər təşkil edib.




# Bakıda "Qars müqaviləsinin 100-cü ildönümündə Cənubi Qafqazda geosiyasi vəziyyət" adlı konfrans keçirilib

Oktyabrın 4-də Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) təşkilatçılığı ilə Bakıda "Qars müqaviləsinin 100-cü ildönümündə Cənubi Qafqazda geosiyasi vəziyyət" adlı konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, konfransda çıxış edən BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev Qars müqaviləsinin tək tarixi nöqteyi-nəzərdən deyil, bu günün reallıqlarına baxdıqda hələ də qüvvədə olan, böyük əhəmiyyətə malik bir sənəd olduğunu deyib. Fərid Şəfiyev imzaladığı sənədlərdən sonradan imtina edən Ermənistanın 44 günlük müharibənin yekununda imzalanmış 10 noyabr Bəyanatını da başqa şəkildə yozmaq istədiyini dilə gətirib. "Ermənistan öhdəlik sözünü qeyri-ciddi qəbul edir. Ermənistan 10 noyabr Bəyanatının 9-cu bəndindəki Zəngəzur dəhlizinin açılması ilə bağlı məsələni başqa istiqamətə yozmaq istəyir. Onlar üçün öhdəlik deyilən bir anlayış yoxdur", - deyə BMTM-in İdarə Heyətinin sədri bildirib. Daha sonra çıxış edən Türkiyə Prezident Administrasiyasının Xarici Siyasət və Təhlükəsizlik Komitəsinin üzvü, Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Vəqfinin sədri Aygün Attar bildirib ki, Qars müqaviləsinin əsas maddəsi ondan ibarətdir ki, Ermənistan bölgədəki ölkələrə qarşı ərazi iddialarından tamamilə əl çəkir. Onun sözlərinə görə, sənəd sübut edir ki, Ermənistan o zaman da Türkiyəyə, Gürcüstana və Azərbaycana qarşı torpaq iddialarında olub. Bu müqavilə Azərbaycanla Türkiyəni Ermənistana qarşı güclü edən bir sənəddir. Qars müqaviləsinin imzalanması Şuşa Bəyannaməsinin və Azərbaycan, Türkiyə, Pakistan parlament sədrlərinin imzaladığı Bakı Bəyannaməsinin imzalanması üçün hüquqi zəmin yaradıb.

Aygün Attar qeyd edib ki, Şuşa Bəyannaməsi Türkiyə-Azərbaycan münasibətləri üçün siyasi, iqtisadi, hərbi anlamda vacib sənəddir və münasibətlərin yeni mərhələyə qədəm qoyması deməkdir.

Daha sonra tədbir panel müzakirələri ilə davam etdirilib. Milli Məclisin deputatı Musa Qasımlı, Türkiyə Diplomatiya Vəqfinin Direktoru Oğuzhan Bilgin, Bakı Dövlət Universitetinin müəllimləri Nəsiman Yaqublu və Mətin Məmmədli, BMTM şöbə müdiri Cavid Vəliyev, Girəsun Universitetinin müəllimi Yalçın Sarıkaya, Qafqaz Beynəlxalq Münasibətlər və Strateji Araşdırmalar Mərkəzinin sədri Araz Aslanlı çıxış edərək Qars müqaviləsinin imzalandığı tarixi şəraitdən, əhəmiyyətindən və bu gün vacib, strateji sənədə çevrilməsindən danışıblar.







# Müzəffər Sərkərdənin qüdrətli Ordusu

◆ Zəfərin izi ilə

Haqqında hələ yüz illər sonra da danışılacaq şanlı Vətən müharibəsinin 8-ci günü - 2020-ci il, 4 oktyabr...

Azərbaycan xalqı bu müharibənin qüdrətli sərkərdəsi - Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyevdən daha bir şad xəbər eşidir: “Bu gün Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun doqquz kəndi işğaldan azad edildi. Bu tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Cəbrayıl rayonunun və işğal olunmuş digər ərazilərin azad edilməsində fəal iştirak etmiş bütün əsgər və zabitlərimizi ürəkdən təbrik edirəm. Onların qəhrəmanlığı, şücaəti nəticəsində bu gün bizim doğma torpaqlarımız bizə qayıdıb. Bu qanlı döyüşlərdə həlak olmuş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, yaralı hərbçilərimizə Allahdan şəfa diləyirəm. Uzun illərdən sonra Cəbrayıl şəhəri azad edildi. Cəbrayıl bizimdir!”

1993-cü ildə Ermənistan tərəfindən işğal edilmiş Cəbrayıl Vətən müharibəsi dövründə Azərbaycan Ordusu tərəfindən azad edilən ilk şəhər idi. Dövlət başçısı məhz buna görə Cəbrayıl şəhərinin azad edilməsinin həm də rəmzi baxımdan Azərbaycan üçün vacib olduğunu söyləyib.



## 27 illik işğala 8 gündə son qoyuldu

### 1 il öncə Cəbrayılı azad edən uğurlu hərbi əməliyyat Vətən müharibəsinin şanlı səhifəsi oldu

### Döyüşlərin ən çox aparıldığı ərazilərdən biri

Cəbrayıl rayonunun Dağ Tumas kəndi yaxınlığındakı “Nəfəsli dərə” deyilən ərazidə yerləşən “Divlər sarayı” mağarası bu diyarın qədim Azərbaycan xalqının yaşadığı bölgələrdən biri olduğunu sübut edir. Araşdırmaçılara görə, Cəbrayıl rayonunun adı eyniadlı kənddən götürülüb. Həmin kəndin adı isə onun əsasını qoymuş Cəbrayıl adlı hörmətli şəxslə bağlıdır. Cəbrayılın “ağa”, “müqəddəs şəxs”, “ata” adlandırılması da təsadüfi deyil. Mənbələrdən alınan məlumatlardan aydın olur ki, həqiqətən Cəbrayıl ata bölgənin çox nüfuzlu adamı, ağsaqqalı olub, xeyirxah işləri kimi tanınıb. Bu xüsusiyyətlərə görə Cəbrayıl ata ümumi qəbiristanlıqda deyil, dövrün adətinə uyğun olaraq məxsus torpaqların lap yuxarı başında - Alpaşa dağının hündür yerində ayrıca dəfn olunub və tək məzarı olub.

Cəbrayıl rayonu mərkəzi Cəbrayıl kəndi olmaqla, 1930-cu il avqustun 8-də yaradılıb. Rayonun ərazisi indiki hüdudları daxilində sahəsi 1050 km2, əhalisi 24.300 nəfər olub.

Birinci Qarabağ müharibəsi zamanı cəbrayıllılar erməni işğalçılarına qarşı rəşadətlə vuruşublar. 1993-cü ildə Ağdam rayonu işğal olunub. Bu isə Cəbrayıl və Füzulinin işğalı üçün real zəmin yaradıb. Cəbrayıl fədailərinin və Zəngilan rayonundan köməyə gələn özünümüdafiə qüvvələrinin şiddətli müqavimətinə baxmayaraq, Cəbrayıl şəhəri 1993-cü il 23 avqust tarixində Ermənistan tərəfindən işğal olunub. Birinci Qarabağ müharibəsi dövründə Cəbrayıl rayonu 400 nəfərə yaxın şəhid verib.

1994-cü ildə Azərbaycan Ordusu Cəbrayılın Cocuq Mərcanlı kəndini, 2016-cı ilin aprelində baş verən 4 günlük müharibə zamanı isə bu kəndin 2.9 km şimal-qərbində yerləşən Lələtəpə yüksəkliyini işğaldan azad edib. 2020-ci il sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsinin elə ilk günündə azad edilən ərazilərimiz arasında Cəbrayıl rayonunun iki kəndi - Böyük Mərcanlı və Nüzgar kəndləri də olub.

Cəbrayıl rayonu 44 günlük müharibə dövründə döyüş əməliyyatlarının ən çox getdiyi ərazilərdən sayılır. Bu rayonda demək olar ki, müharibə başlayandan bitənədək ərazilərin işğaldan azad edilməsi üçün hərbi əməliyyatlar aparılıb. Cəbrayıl əməliyyatları həm də Azərbaycanın İranla sərhədinin müəyyən hissəsinin bərpasına imkan verib. Cəbrayıl azad edildikdən sonra Azərbaycan özünün üçrəngli bayrağını Cənubi Azərbaycanla Şimali Azərbaycanın Orta əsr şəhərlərini birləşdirən, karvan yolunun üstündə tikilən qədim Xudafərin körpüsünün də üzərinə sancıb.

### “Biz hər an zəfər müjdələri gözləyirdik”

Cəbrayılın Əmirvarlı kəndində doğulan AMEA-nın müxbir üzvü, professor Novruz Quliyev deyir ki, mənfur qonşularımızın 27 sentyabr 2020-il tarixində törətdiyi növbəti təxribatdan sonra Ali Baş Komandan İlham Əliyevin ordumuza əks-hücum əməliyyatına başlaması əmrini verməsi xalqımızda böyük ruh yüksəkliyi yaratdı. Vətəndaşlarımız Ali Baş Komandanın və ordumuzun ətrafında bir yumruq kimi birləşdi: “Biz hər an zəfər müjdələri gözləyirdik. Prezidentin işğaldan azad olunmuş yaşayış məntəqələri haqqında verdiyi məlumatları sevinc göz yaşları ilə dinləyirdik və heç vaxt yaşamadığımız hissləri keçirirdik”.

N.Quliyev əlavə edir ki, Ulu Öndər Heydər Əliyev 1990-cı illərin əvvəllərində yaranmış son dərəcə mürəkkəb şəraitdə müstəqilliyimizi və dövlətçiliyimizi xilas etdi. Qısa müddətdə ictimai-siyasi vəziyyəti sabitləşdirərək sivil, demokratik dövlət qurdu, iqtisadiyyatımızın inkişafı üçün təməl prinsiplərini yaratdı. Dahi rəhbər Heydər Əliyev hakimiyyətə gələn ilk gündən mərkəzi hakimiyyətə tabe olan ordu hissələri yaratmağa başladı. 1993-cü ilin sonu - 1994-cü ilin əvvəllərində uğurlu Horadiz əməliyyatı keçirildi. Qısa müddətdə Füzulinin 22 kəndi, Horadiz qəsəbəsi və Cəbrayılın Cocuq Mərcanlı kəndi işğaldan azad olundu. Eyni zamanda Beyləqanın işğal olunmaq təhlükəsi aradan qalxdı: “Ulu Öndər 2003-cü ilin prezident seçkilərində İlham Əliyevi dəstəkləmək üçün xalqa müraciət etdi. Dedi ki, onun həll edə bilmədiyi taleyüklü məsələləri İlham Əliyev həll edəcək və ona özü qədər inanır. Bu, həqiqətən də baş verdi”.

N.Quliyev bildirir ki, Prezident İlham Əliyev ölkəni daha da inkişaf etdirməklə, güclü ordu yaratmaqla, çox fəal xarici siyasət aparmaqla 44 gün ərzində torpaqlarımızı işğaldan azad edərək tarixi qələbə qazana bildi. İlham Əliyev eyni zamanda siyasi arenada bütün xarici təzyiqləri dəf etdi, kütləvi informasiya vasitələrinə verdiyi müsahibələrdə Qarabağ probleminin siyasi, tarixi və etnik aspektləri barədə dünya ictimaiyyətinə peşəkarlıqla məlumat verdi. Ən müasir silahlarla təmin olunan XXI əsrin ordusunu yaradan Ali Baş Komandanımız əsl sərkərdə kimi bütün əməliyyatlara özü uğurla rəhbərlik etdi və ordumuzu qələbədən qələbəyə apardı: “44 günlük müharibədə ordumuz bir dəfə də olsa geri çəkilmədi, daim irəli getdi. Bu inanılmaz sevinci bizə bəxş etdiyinə görə Prezidentə rayonumuzun sakinləri adından dərin təşəkkürümü bildirirəm. 44 günlük müharibədə zəfərin əldə edilməsində xalqımızın birliyi, vətənpərvərliyi, torpağa bağlılığı, qələbə əzmi böyük rol oynadı. Erməni faşistlərinin şəhərlərimizə atdığı raketlərdən yaxınlarını itirmiş və özləri möcüzə nəticəsində sağ qalmış, uçqunların altından çıxmış vətəndaşlarımız ancaq “irəli” deyirdilər. Övladlarını itirmiş valideynlər “Vətən sağ olsun” deyirdilər. Əlbəttə, belə xalqı heç kim məğlub edə bilməzdi”.

### Xarabalığa çevrilmiş kəndlər, dağıdılmış evlər, məzarlar...

Azərbaycan Ordusu Cəbrayılı işğaldan azad edəndə erməni barbarlığının bir daha şahidi olduq. Rayon xarabalığa çevrilib: tarixi, eyni zamanda, dini təyinatlı abidələrlə zəngin rayonlardan olan Cəbrayıldakı abidələr, hətta ən dəhşətlisi odur ki, məzarlar da dağıdılaraq talan edilib.

Ətraf mühitin qorunması, təbii sərvətlərdən səmərəli istifadə və onların ilkin qiymətləndirilməsi məqsədilə Arazboyu ərazilərdə aparılan monitorinq və müşahidələr göstərib ki, yaşayış məntəqələrində olmuş bütün evlər, binalar tamamilə dağıdılıb, yolların kənarındakı tut, qovaq, çinar, şam və meyvə ağacları kəsilib, bəzi yerlərdə isə tamamilə yandırılıb. Meşələrdə və yaşıllıq massivlərində qəsdən törədilmiş yanğınlar nəticəsində bitki örtüyü, münbit torpaq qatı və digər canlı aləm məhv edilib.

Erməni vandallığını sübut edən faktlardan biri də keçmiş sovet dövründən xüsusi qoruma statusu olan unikal təbiət abidələri siyahısına daxil edilmiş minillik qədim ağacların qəsdən kəsilməsi və zəngin təbiət tarixinin bilərəkdən silinməsinə şərait yaradılmasıdır. Qubadlı, Füzuli və Cəbrayıl rayonlarının ərazisində yaşı 1600, 900 və 500 il olan Şərq çinarlarının məhv edildiyi müəyyən olunub.

Azad edilmiş ərazilərdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə qədər dövlət qeydiyyatına alınan 700-dən çox tarix və mədəniyyət abidəsi, o cümlədən Cəbrayıl rayonunda 11 və 15 aşırımlı Xudafərin körpüləri erməni vandalizminin qurbanı olub. Tikilmə tarixinə görə dövrünün möhtəşəm mühəndis qurğularından olan, Azərbaycan ilə İranın dövlət sərhədində yerləşən Xudafərin körpüləri işğal edildikdən sonra dağıntılara məruz qalıb. Bu, Ermənistan tərəfindən “Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında” UNESCO-nun 1954-cü il Haaqa Konvensiyası, “Dünya mədəni və təbii irsinin mühafizəsi haqqında” UNESCO-nun 1972-ci il Konvensiyası, “Arxeoloji irsin mühafizəsi haqqında” 1992-ci il Avropa Konvensiyası və digər beynəlxalq hüquq normalarının kobud şəkildə pozulmasının, bu ölkənin təcavüzkar siyasət aparmasının göstəricisidir.

İşğal müddətində Azərbaycanın şəhər və kəndlərini bu qədər arxayınlıqla xarabalığa çevirməsində təkcə Ermənistanın özü deyil, həm də arxasında dayanaraq ona dəstək verən ölkələr günahkar sayılır. Çünki Azərbaycan dəfələrlə bu ərazilərin talandığı, müxtəlif məqsədlər üçün istifadə edildiyi barədə dünya ölkələrinə çağırışlar etsə də, əslində, bu vəziyyətdən Azərbaycanın çağırışlarına qədər də məlumatlı olan dövlətlər onun qarşısının alınması üçün heç bir tədbir görməyiblər.

Müharibədən iki gün əvvəl BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında çıxış edən Prezident İlham Əliyev bir daha ermənilərin törətdiyi cinayətlər barədə məlumat verib. Dövlət başçısı nəzərə çatdırıb ki, Ermənistan işğal edilmiş ərazilərimizdə Azərbaycanın tarixi və dini abidələrini dağıdıb. Məqsəd isə orada azərbaycanlıların bütün izlərini silməkdir: “Ermənistan işğal olunmuş ərazilərdə qanunsuz olaraq təbii ehtiyatları istismar edir və süni ekoloji böhran yaratmaq məqsədilə su ehtiyatlarından istifadə edir. Azərbaycanın işğal altında olan ərazilərində qızıl və digər qiymətli metal və minerallar hasil edən Ermənistan onları beynəlxalq bazarlara ixrac edir. Bu, qanunsuz biznes fəaliyyəti və çirkli pulların yuyulması sxemidir”.

Milli Məclisin Təbii ehtiyatlar, energetka və ekologiya komitəsinin sədri Sadiq Qurbanov qeyd edir ki, coğrafi baxımdan əsasən dağlıq ərazilərdən ibarət olan Cəbrayıl rayonu özünəməxsus flora və faunaya malik olmaqla təbiət abidələrinin mövcudluğuna görə də xüsusi çəkiyə malik olub. Lakin ermənilər işğal etdikləri ərazilərdə ekoloji vandalizm və soyqırımı həyata keçiriblər. İşğaldan əvvəl rayonda yaşı 400-1700, diametri 60/800 sm olan, təbiət abidəsi sayılan 14 qədim ağac tamamilə məhv edilib. 96 kəhriz və çox sayda bulaqların böyük bir hissəsi dağıdılıb. Meşə fondunun zənginliyi ilə seçilən Cəbrayılın ərazisində palıd, vələs, şah çinar, fıstıq, qovaq ağacları ilə zəngin olan 4629 hektar meşə fondunun 2319,7 hektarı, qeyri-meşə fonduna aid olan 409 (yol və çay qırağı və.s) ağac məhv edilib. Bundan əlavə, faydalı qazıntılarla zəngin 26 mineral xammal yatağından 13-ü qanunsuz olaraq istismar edilib. Bununla həm iqtisadiyyatımıza, həm də Azərbaycanın zəngin flora və faunasına ciddi zərbə vurulub.

Komitə sədrinin sözlərinə görə, hökumətin qarşısında duran ən ümdə vəzifə ekoloji tarazlığın bərpası məqsədilə ərazilərin yaşıllıq zonalarının yenilənməsidir. Lakin təəssüf ki, təbiətimizə vurulmuş bəzi zərərləri aradan qaldırmaq mümkün deyil. Cəbrayılda Azərbaycanın dövlət reyestrinə daxil edilmiş təbiət abidələrinin məhv edilməsini görünməyən vəhşilik sayan S.Qurbanov hazırda həmin ərazilərdə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən monitorinqlərin aparıldığını və ərazinin zəngin təbiətinə vurulmuş zərərin dəqiqləşdirilməsi istiqamətində iş aparıldığını nəzərə çatdırır.

### “Cəbrayıldakı vəziyyət Xorvatiyadan daha ağrılıdır”

Ucsuz-bucaqsız səhraya çevrilən, dağıdılmış Cəbrayılda ermənilər tərəfindən törədilmiş vəhşiliklər bu vandallığı canlı görmək məqsədilə oraya səfər edən xarici diplomatları da dəhşətə gətirib. Əfqanıstanın Azərbaycandakı səfiri Amanullah Ceyhun Cəbrayıla səfəri zamanı burada baş verənləri insanlıqdan kənar əməllər adlandırıb: “Burada məzarları qazıblar. Mən orada ağladım. Bu məzarlıqları görmək kiməsə təsir etmirsə, mən bilmirəm, o insanların vicdanı necədir. Qəbirləri qazıb meyitləri çıxarıblar, bu, insanlıqdan kənar bir hadisədir”.

Liviyanın Azərbaycandakı müvəqqəti işlər vəkili Əşrəf Adəm işğaldan azad olunan torpaqlarda gördüklərindən təsirləndiyini söyləyib. Diplomat yüz ildən artıq yaşı olan qəbirlərin, evlərin darmadağın edilməsini ermənilərin insanlığa sığmayan hərəkətlərinin sübutu olduğunu bildirib.

Xorvatiyanın Azərbaycandakı səfiri Branko Zebic isə Cəbrayılda törədilən vəhşiliklərin öz ölkəsində baş verənlərdən daha ağrılı olduğunu açıqlayıb: “Bu vəziyyət 30 il əvvəlki Xorvatiyanı xatırladır. Burada bəzi səhnələr daha da ağrılıdır. Xüsusilə qəbiristanlığın tamamilə dağıdılmasını görmək kifayət qədər ağrılı bir səhnədir. Bu kimi hallar onu göstərir ki, belə hadisələr, münaqişələr baş verməməlidir və bir daha bu cür mənzərələri yaşamamalıyıq”.

Cəbrayıla bu yaxınlarda səfər etmiş gürcüstanlı bloqçu Melisa Geladze isə öz təəssüratını belə bölüşüb: “Buraya baş verənləri, real vəziyyəti görmək üçün gəlmişəm. Cəbrayıl böyük ərazisi, əhalisi çox olan rayon olub. Qazılmış, dağıdılmış məzarları gördüm. Mən bilmirəm, bunu necə adlandırmaq olar?! Bilmirəm, bunu hansı xalq edər?! Qəbirdə olanların günahı nədir ki, sümüklərini çıxarırsınız? Təəssüratlarım çox dəhşətlidir”.

Müharibədən sonra - 2020-ci il dekabrın 23-də Qubadlı və Zəngilan rayonlarına səfər edən Prezident İlham Əliyev ermənilərin işğaldan azad edilmiş ərazilərdə törətdikləri vəhşiliklərin heç İkinci Dünya müharibəsi zamanı faşistlər tərəfindən belə törədilmədiyini söyləyib: “Bütün kəndlər dağıdılıb. Bütün kəndlərimiz, tarixi abidələrimiz, dini abidələrimiz düşmən tərəfindən dağıdılıb. Bütün dünya bunu görməlidir. Heç İkinci Dünya müharibəsi zamanı faşistlər belə vəhşilik törətməyib. Görün, biz hansı vəhşi düşmənlə üz-üzə idik, biz hansı şər qüvvələri məğlub etdik?! Bölgəmizi, Qafqazı faşistlərdən azad etdik. Bütün bu kəndləri bərpa edəcəyik. Ancaq, ilk növbədə, bütün kəndlər, o dağıntılar sənədləşdiriləcək, uçota alınacaq. Düşmən bu cinayətlərə görə cavab verəcək”.

### “Azad edilmiş torpaqlara qayıdışımız məhz Cocuq Mərcanlıdan başlayıb”

Prezident İlham Əliyev işğal altında olan tarixi torpaqlarımızı Ermənistana güzəştə getməyəcəyimizi dəfələrlə açıq şəkildə bəyan etmişdi. Cəbrayılın Cocuq Mərcanlı kəndinin, Lələtəpə yüksəkliyinin işğaldan azad edilməsi zamanı isə Ermənistana və onun havadarlarının nəzərinə bir daha çatdırıldı ki, Azərbaycan işğalla barışmaq fikrində deyil, ölkəmiz bu torpaqları hərb yolu ilə almaq gücünə malikdir. Hələ müharibədən əvvəl Azərbaycanın Lələtəpə yüksəkliyini çox qısa zaman ərzində işğaldan azad etməsi bu gücün yenilməzliyini bir daha təsdiq etdi.

Lələtəpə yüksəkliyinin alınmasında iştirak edən Azərbaycanın Milli Qəhrəmanı, şəhid Şükür Həmidov (Vətən müharibəsi zamanı Qubadlı döyüşlərində həlak olub) bu əməliyyat haqqında danışarkən ermənilərin hərbçilərimizin gücünü gördükdən sonra qorxaraq qaçmağa başladığını söyləmişdi: “2016-cı il aprelin 1-i ön xətdə döyüş növbətçiliyi aparan bölmələrimizə düşmən qəfil hücum etdi. Şəxsi heyətimiz düşmənin müqavimətini qırdı. Düşmən müqavimət göstərməyə çalışsa da, döyüşçülərimizin gücünü gördükdən sonra əlindəki silahını atıb pərakəndə şəkildə qaçmağa başladı. Ermənilər təşviş içində idi. Bölmələrimiz əks-hücum ilə düşməni geri otuzdurdu, Lələtəpə yüksəkliyi və ətraf bölgələr düşməndən tamamilə azad edildi. Çox gözəl bir tarixi an yaşandı. Ordumuzun gücü, şəxsi heyətin döyüş ruhu ortaya çıxdı. Düşmənə və havadarlarına sübut olundu ki, Azərbaycan Ordusu 1990-cı illərdəki ordu deyil və ordumuzun vahid komandanlığı, orduda xidmət edə biləcək peşəkar zabitlər var. Əsgərlərimiz, döyüşçülərimiz böyük rəşadət göstərdilər. Lələtəpə yüksəkliyinə üçrəngli bayrağımızı sancdılar”.

Cocuq Mərcanlıya işğaldan sonra qayıdan həyat həm də Azərbaycanın Böyük Qayıdışının başlanğıcı idi. Prezident İlham Əliyev 2020-ci il oktyabrın 4-də Cəbrayıl şəhərinin işğaldan azad edilməsi ilə bağlı xalqa müraciətində Cocuq Mərcanlının bizim yenilməz iradəmizin rəmzi olduğunu bir daha nəzərə çatdırıb: “Uğurlu əməliyyat nəticəsində azad edilmiş yüksəkliklər imkan verdi ki, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə sakinlər qayıtsınlar. Gözəl qəsəbə saldıq. Qəsəbənin açılışında demişdim ki, Cocuq Mərcanlı bizim yenilməz iradəmizin rəmzidir. Cocuq Mərcanlı onu göstərir ki, heç vaxt Azərbaycan xalqı işğalla barışmayacaq və bizim işğal edilmiş digər torpaqlara qayıdışımız məhz Cocuq Mərcanlıdan başlamışdır”.

### Cəbrayıl döyüşlərinin hərbi əhəmiyyəti

Cəbrayıl əməliyyatlarının uğurla başa çatmasında Cocuq Mərcanlı kəndi və Lələtəpə yüksəkliyinin işğaldan azad edilməsi mühüm rol oynadı.

Hərbi ekspert, mayor Ədalət Verdiyev hesab edir ki, Cocuq Mərcanlı və Lələtəpə yüksəkliyinin azad edilməsi Azərbaycan Ordusu üçün Araz çayı ərazisi boyunca uğurlu əks-hücum əməliyyatlarının həyata keçirməsi üçün mühüm bir plazdarm yaratmış oldu. Bu plasdarm, eyni zamanda, Füzuli və Cəbrayıl rayonları arasındakı magistral yolu daim atəş altında saxlamağa imkan verirdi. Bu isə düşmənin öz ehtiyatlarını döyüşə cəlbetmə cəhdlərinin qarşısının alınması üçün çox vacib idi. Ümumilikdə Cəbrayıl rayonunun azad edilməsi Azərbaycan ilə İran arasındakı dövlət sərhədinin bərpa olunmasında, eyni zamanda, Xocavənd rayonunun cənub kəndlərinin, ermənilər üçün böyük əhəmiyyət kəsb edən, xüsusi strateji mövqeyə malik olan Hadrut qəsəbəsi istiqamətində hücumlarımızın davam etdirilməsi üçün münbit şərait yaratdı: “Cəbrayıl rayonunun inzibatı mərkəzinin və 80 kəndinin azad edilməsi zamanı Azərbaycan Ordusu bir çox uğurlu əməliyyatlar həyata keçirdi. Soltanlı və Əmirvarlı, Dağ Tumas yüksəklikləri uğrunda çox gərgin və intensiv döyüşlər getdi. Bu ərazilərin azad olunmasında Azərbaycan Ordusunun quru qoşunları ilə bərabər, Müdafiə Nazirliyinin xüsusi təyinatlı qüvvələri də ciddi nailiyyətlər əldə etdilər”.

Ə.Verdiyevin sözlərinə görə, əgər Cəbrayılın Nüzgar və Böyük Mərcanlı kəndləri 27 sentyabrda, yəni əməliyyatların ilk günündə azad edilmişdisə, sonuncu kəndləri - Yanarhac və Yuxarı Məzrə kəndləri 7 noyabrda - Ermənistanın kapitulyasiya aktını imzalamamışdan iki gün əvvəl azad olunmuşdu. Bu isə onu göstərir ki, müharibənin başladığı ilk gündən son günədək Cəbrayıl ərazisində müxtəlif istiqamətlərdə - həm Hadrut, həm Xocavənd, həm Qubadlı istiqamətində yerləşən kəndlərin işğaldan azad edilməsi üçün əməliyyatların aparılması davam etdirilib.

Cəbrayıl rayonunun azad edilməsi üçün döyüşlərin uzun müddət davam etməsi onun kəndlərinin sayının çoxluğu, ermənilərin bu istiqamətdə kifayət qədər ciddi mühəndis-istehkam qurğularına malik olması ilə əlaqələndirilir. Müharibə zamanı Azərbaycan Ordusu Cəbrayıl rayonu ərazisində düşmənə kifayət qədər ciddi zərbələr vurub, ona aid olan silah, sursat, texnika və digər avadanlıqları qənimət olaraq ələ keçirib. Həmin qənimətlərdən bir hissəsi hazırda Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Digər bir hissəsi isə Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənin özünə qarşı istifadə olunur.

### Sərhəddə aparılan əməliyyatların müəyyən təhlükəsi var

Cəbrayıl rayonunun cənubdan Araz çayı boyunca İranla həmsərhəd olması onun strateji əhəmiyyətini daha da artırır. Cəbrayılda aparılan döyüş əməliyyatlarının bir hissəsinin həmsərhəd ərazidə aparılması məsələsinə toxunan keçmiş xarici işlər naziri, politoloq Tofiq Zülfüqarov bildirir ki, belə əməliyyatların müəyyən təhlükəsi var. Çünki müəyyən təxribatlar baş verə bilər. Lakin Azərbaycan Prezidenti İlham Əliyevin düzgün idarəetmə siyasəti Cəbrayıl döyüşlərinin də uğurla başa çatmasına səbəb oldu.

Onun fikrincə, düzgün idarəetmə siyasəti Azərbaycanı nəinki Cəbrayıl döyüşlərində, eləcə də bütün döyüşlərdə qələbəyə apardı: “Bu idarəetmənin başında Prezident, Ali Baş Komandan İlham Əliyev dayanırdı. Müharibədə gördük ki, həm ordumuz, həm iqtisadiyyatımız, həm cəmiyyətimiz müharibəyə hazır vəziyyətdədir. İnsanların öz övladlarını müharibəyə necə yüksək əhvali-ruhiyyə ilə yola saldığının şahidi olduq. Hərbçilər arasında böyük ruh yüksəkliyi yaşanırdı. Bu, böyük bir təbliğat işinin nəticəsi idi. Hərbi əməliyyatlar getdiyi zaman mülki əhalinin çətinliklər görməsinə imkan verilmədi - nə qaz kəsildi, nə işıq söndü, nə də ərzaq təchizatında problem yarandı. Bütün bu kompleks yanaşmanın əsasında düzgün idarəetmə dayanırdı”.

T.Zülfüqarov Cəbrayıl döyüşləri zamanı İranda yaşayan azərbaycanlıların verdiyi dəstəyi də xüsusi qeyd etdi: “Azərbaycan üçün o vaxtlar bu dəstəyi nümayiş etdirən videokadrlar çox önəmli idi. Orada yaşayan insanlar Arazın bu tayında gedən uğurlu döyüşləri sevinclə izləyirdilər. Təbii ki, bu mənəvi dəstək bizim üçün çox vacib idi”.

Politoloq əlavə edir ki, Cocuq Mərcanlı və Lələtəpə yüksəkliyinin azad edilməsi, əslində, böyük Qayıdışın artıq başladığını göstərirdi. İnsanlar uzun müddətdən sonra ilk azad edilən ərazilərdə yaşamağa başladılar. Bu da yeni tarixi dövrün birinci səhifəsi idi.

### Erməni vəhşiliyinin günahkarı həm də beynəlxalq qurumlar və havadarlarıdır

Milli Məclisin deputatı Ceyhun Məmmədov qeyd edir ki, Cəbrayılın iqtisadi baxımdan da potensialı kifayət qədər yüksəkdir. Bu rayonda vaxtilə baramaçılıq, xalçaçılıq (ayrıca Cəbrayıl xalça məktəbi var), xüsusi ilə “Qasımuşağı”, “Kürd”, “Qaraqoyunlu”, “Bəhmənli” adlı xovlu, zili, çuval, çul, məfrəc, heybə, xurcun, vərni, asmalıq, palaz, kilim, cecim kimi xovsuz xalçaları ilə məşhur olub. İşğaldan əvvəl Cəbrayılda 5 ipək fabriki olub. Rayon əhalisi o dövrdə, əsasən, üzümçülük, heyvandarlıq, taxılçılıq, baramaçılıqla məşğul olub. İşğaldan əvvəlki illərdə rayonda 60 min tondan çox üzüm istehsal olunurdu. Rayonda tikiş, xalça, cihazqayırma sexləri və müxtəlif sənaye obyektləri fəaliyyət göstərirdi.

C.Məmmədov qeyd edir ki, ermənilər Cəbrayılın bütün infrastrukturunu - məktəblərini, bağçalarını, xəstəxanalarını, fabriklərini, klublarını, tarixi abidələrini, məscidlərini və s. dağıdaraq, yerləyeksan edib. Onlar işğaldan əvvəl Cəbrayılda olan 5 tarixi əhəmiyyətə malik məscid binasını da barbarcasına dağıdıblar: “Hətta ürəkləri soyumayıb qəbirlərimizi də deşiblər. Bu, bir daha ermənilərin necə vəhşi və xəyanətkar bir millət olduğunu göstərir. Dünya isə hər zaman olduğu kimi, yenə də bu vəhşiliyə qarşı biganədir”.

Deputat deyir ki, insan hüquqlarından və demokratiyadan bəhs edən qurumlar özlərini görməzliyə vuraraq yenə dünyaya ədalət dərsi keçməyə çalışırlar. Ermənilər belə biganəlik və laqeydlikdən bəhrələnib yeni vəhşiliklər törətməyi planlaşdırırlar. Bu vəhşiliyin günahkarı həm də beynəlxalq qurumlar və ermənilərin havadarlarıdır: “Ancaq bütün bunlar bizim doğma dədə-baba yurdumuza qayıtmağımıza mane ola bilməz. Artıq bölgədə böyük quruculuq işlərinə başlanılıb. Yeni baş planlar hazırlanır, avtomobil və dəmir yolları çəkilir. Biz hər zaman böyüyüb boya-başa çatdığımız, dədə-baba torpağımız olan Cəbrayıla qayıtmaq arzusu ilə yaşamış, o günün çin olacağına qəti inam bəsləmişik. Artıq Vətən həsrətinə son qoyulub, bu gün nəhayət ki, yurd həsrətində olan ürəklərimiz yüngülləşir. Artıq bu qələbə günlərinin sevinci ilə yaşayırıq. Biz əminik ki, tezliklə öz yurdumuza qayıda biləcəyik. O gün uzaqda deyil!”

Deputat nəzərə çatdırır ki, Cəbrayıl işğaldan azad olunduqdan sonra bölgənin iqtisadi inkişafı üçün yeni imkanlar yaranıb. Artıq bir sıra layihələr üzərində işlər uğurla həyata keçirilir. Bölgənin relyefi, yerləşdiyi ərazi turizm üçün yeni imkanlar açır. Günəş enerjisindən istifadə, kənd təsərrüfatının inkişafı, yeni istehsal müəssisələrinin yaradılması üçün geniş imkanlar var.

*...Cəbrayıl şəhərinin alınmasından sonra Vətən müharibəsi hələ 36 gün davam edəcəkdi. Yeni hədəflər üçün qanlı döyüşlər gedəcək, zəfər daha da yaxınlaşacaqdı.*

*Nəhayət, Qarabağ tam Azərbaycan olacaqdı!*

*Və oldu da...*

**İlhamə İSABALAYEVA,**
**“Azərbaycan”**



# QARABAĞ dirçəliş yolundadır





# İlham Əliyev qətiyyətinin təntənəsi

## Qarabağ və Şərqi Zəngəzurun bərpası Azərbaycanın Zəfərini və yüksəlişini dünyaya bəyan edir



Ötən ilin Vətən müharibəsində qazanılan parlaq hərbi və siyasi Zəfərdən sonra Azərbaycan xalqı öz tarixinin tamamilə yeni mərhələsinə qədəm qoyub. Bu müharibə nəticəsində dövlətimiz özünün yeganə ağrılı problemini həll etdi, işğal altındakı torpaqlarımız azad olundu, ölkəmizin ərazi bütövlüyü təmin edildi. Ötən ilə qədər Azərbaycan dünyada yüksək templərlə inkişaf edən ölkə kimi fərqlənirdisə, indi beynəlxalq ictimaiyyət bizi həm də qalib dövlət, müzəffər xalq kimi tanıyır.

### İşğal altında qalmış torpaqlarımız erməni vandallığının qurbanı olub

Azərbaycanı inkişaf yoluna çıxaran, söz sahibi edən Prezident İlham Əliyev 44 günlük müharibənin nəticəsi olaraq ölkəmizi qalib dövlətə çevirdi. Bu qələbə tariximizi şərəfləndirdi, xalqımızı qürurlandırdı, dövlətimizi daha məğrur etdi. Vətən müharibəsindəki zəfərin təntənəsi isə daim yaşanacaq, hiss olunacaq və gələcəyimizə işıq salacaq. Hazırda Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işləri tarixi qələbəmizi tərənnüm edərək, onun əsas rəmzinə çevrilib. Bu günlərdə Prezident İlham Əliyevin iştirakı ilə Tərtərin Suqovuşan qəsəbəsinə və Talış kəndinə gedən avtomobil yollarının açılması, Talış-Tapqaraqoyunlu-Qaşaltı-Naftalan avtomobil yolunun təməlinin qoyulması, “Suqovuşan-1” və “Suqovuşan-2” su elektrik stansiyalarının yenidənqurmadan sonra istifadəyə verilməsi göstərir ki, işğaldan azad olunmuş torpaqlarımız dirçəlir, canlanır. Bu torpaqların əsl sahibləri onu zülmətdən xilas edərək yeni həyat bəxş edirlər.

Ötən ilin bu günlərində torpaqlarımız azad olunduqca başqa bir reallığın da şahidi olurduq. 30 ilə yaxın torpaqlarımızı işğal altında saxlayan düşmən şəhər və kəndlərimizdə daşı daş üstə qoymamışdı. Cəbrayıl, Füzuli, Ağdam şəhərlərindən əsər-əlamət qalmamışdı. İşğal altında qalmış bütün ərazilərimiz erməni vandallığının qurbanı olmuş, şəhər və kəndlərimiz viran qoyulmuş, xalqımıza və dövlətimizə qarşı cinayət törədilmişdi. Tarixi abidələrimizə, milli-mədəni irsimizə, mənəvi dəyərlərimizə, təbiətimizə qəsd edilmişdi. 30 ilə yaxın bir dövrdə düşmən torpaqlarımızı erməniləşdirməyə, Qarabağın tarixini saxtalaşdırmağa çalışmış, ərazilərimizdə qanunsuz “tədqiqatlar” aparmışdı. Amma heç nəyə nail olmamışdı, çünki tarix saxtakarlığı, yalanı qəbul etmir.

Prezident İlham Əliyev işğaldan azad olunmuş rayonlara ilk səfəri zamanı bu barədə ürəkağrısı ilə söz açaraq bu torpaqlardan sanki bir vəhşi qəbilənin keçdiyini bildirdi: “...Yol boyunca dağıdılmış kəndləri və Füzuli şəhərini dağılmış vəziyyətdə görəndə adamın ürəyi ağrıyır. Vəhşilər bizim şəhərimizi nə günə salıblar?! Dağıdıblar, evləri dağıdıblar, bütün infrastrukturu dağıdıblar, bir dənə də salamat bina yoxdur. Bütün dünya görməlidir erməni vəhşiliyi nə deməkdir və bütün dünyaya biz bunu göstərəcəyik. Təkcə Füzuli yox, Ağdam şəhəri nə gündədir, başqa şəhərlər. Sanki bu torpaqlardan bir vəhşi qəbilə keçib. Hər şeyi dağıdıb, talan edib, bizim mədəni, tarixi, dini irsimizi silmək istəyib, ancaq istədiyinə nail ola bilməyib”.

Cəbrayıla, Füzuliyə, Zəngilana, Qubadlıya doğru uzanan yollarda birinci xanım Mehriban Əliyevanın etdiyi videoçəkilişlər bu həqiqətləri bütün dünyaya nümayiş etdirdi. Sonrakı dövrdə azad olunmuş ərazilərə səfərlər zamanı bir daha gördük ki, biz işğalçı, terrorçu düşmənlə yox, həm də vandallarla, vəşhilərlə üz-üzə qalmışdıq. Tarix sübut edir ki, müharibələr zamanı şəhərləri, mədəniyyət nümunələrini, abidələri məhv edənlər məhz mədəni şüur səviyyəsi geri qalanlar olublar. Vətən müharibəsi göstərdi ki, biz də belə bir şüur səviyyəsinin daşıyıcısı olan düşməni məhv etmişik.

### Doğma yurd yerlərimizdə həyat yenidən canlanacaq

İşğal edilmiş torpaqların azad olunması uğrunda savaşdan qalib çıxan Azərbaycan dövlətinin qarşısındakı ilk missiya otuz ilə yaxın erməni vandallarının vəhşilikləri nəticəsində dağıdılmış ərazilərimizin yenidən qurulması və bərpasıdır. Bu, həm də ölkəmizin milli prioritetlərindən biridir. Çünki illərdir ki, doğma el-oba nisgili ilə yaşayan keçmiş məcburi köçkünlər doğma yurdlarına qayıdacaqları günü səbirsizliklə gözləyirlər.

Azad olunmuş torpaqlarımızda bərpa və yenidənqurma işləri isə hələ müharibənin davam etdiyi günlərdən başlamışdı. Suqovuşan kəndi Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu əks-hücum əməliyyatı nəticəsində 2020-ci il oktyabrın 3-də işğaldan azad edildi və Prezident İlham Əliyevin tapşırığı ilə hələ döyüşlərin davam etdiyi bir vaxtda yolun çəkilişinə başlanmışdı. Ötən ilin sonunda təsdiq olunan dövlət büdcəsində isə işğaldan azad olunmuş ərazilərə böyük qayıdışın təmin edilməsi üçün şəhər və kəndlərin bərpası və yenidən qurulması, bu ərazilərdə müasir infrastrukturların yaradılması, o cümlədən elektrik enerjisi, təbii qaz, su, rabitə, yol, təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal, digər zəruri infrastrukturların, mədəni-tarixi abidələrin bərpası və yenidən qurulması, yaşayış evlərinin tikintisi məqsədilə vəsait ayrıldı.

Qarabağın və Şərqi Zəngəzurun kənd və şəhərlərinin yenidən qurulması, insanların öz doğma yurdlarına qayıdışı, burada məşğulluğun təmin edilməsi və yeni istehsal sahələrinin yaradılması üçün ilk növbədə tələblərə cavab verən infrastruktur mövcud olmalıdır. Hazırda bu ərazilərdə, ilk növbədə, infrastrukturun yenidən qurulması istiqamətində genişmiqyaslı layihələr icra olunur. Prezident İlham Əliyev hərbi əməliyyatların başa çatmasından və Azərbaycanın Qələbəsindən sonra dəfələrlə işğaldan azad olunmuş rayonlara səfər edib. Dövlət başçısının bütün səfərləri Qarabağda və Zəngəzurda yeni avtomobil yollarının, hava limanlarının, elektrik stansiyalarının təməlinin qoyulması ilə əlamətdar olub. Bu səfərlər zamanı “ağıllı kənd” konsepsiyası əsasında kəndlərin təməli qoyulub, Ağdam və Şuşa şəhərlərinin Baş planı təsdiq olunub, tarixi-mədəni abidələrin bərpası ilə bağlı layihələrə start verilib.

Ümumiyyətlə, azad olunmuş ərazilərimizin bərpası kompleks tədbirlər sistemindən ibarətdir. Bu proqrama uyğun olaraq işğaldan azad olunmuş bütün ərazilərimiz tamamilə yenidən qurulacaq, doğma yurdlarına qayıdacaq vətəndaşlarımızın layiqli yaşayışı, məişəti, məşğulluğu təmin ediləcək. Doğma yurd yerlərimizdə həyat yenidən qaynayacaq. Eyni zamanda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları Azərbaycanın iqtisadiyyatına böyük töhfələr verəcək.

### Yüksək templə başlanan bərpa və yenidənqurma işləri sürətlə davam etdirilir

Hazırda işğaldan azad olunmuş ərazilərdə kommunikasiyaların bərpası istiqamətində çoxsaylı layihələr icra olunur. Qarabağ və Şərqi Zəngəzurda çəkilən yeni avtomobil yollarının ümumi uzunluğu 700 km-ə yaxındır. Həmçinin enerji ilə təminat məsələləri yoluna qoyulur, yeni yarımstansiyalar və su elektrik stansiyaları tikilir və bərpa olunur. Bunlar ilkin addımlardır və artıq bir hissəsi başa çatmaq üzrədir. Məsələn, qeyd edildiyi kimi, Suqovuşanda bir sıra infrastruktur layiəhələri artıq icra olunub. Daha əvvəl isə Laçında su elektrik stansiyası istifadəyə verilmişdi. Füzüli Beynəlxalq Hava Limanının və “Zəfər yolu”nun inşası başa çatmaq üzrədir.

Sentyabrın 27-də Anım Günü ilə bağlı xalqımıza müraciət edən Prezident İlham Əliyev deyib: “Biz bundan sonra qalib ölkə, müzəffər xalq kimi yaşayacağıq və azad edilmiş torpaqları quracağıq, bərpa edəcəyik. O torpaqlara artıq həyat qayıdır, insanlar qayıdır. Bu qayıdışı ən qısa müddət ərzində təmin etmək bu gün bizim başlıca vəzifəmizdir”.

*Qarabağ və Şərqi Zəngəzur sürətlə bərpa olunur və işğaldan azad edilmiş ərazilərimizdə aparılan kompleks yenidənqurma işləri Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətinin növbəti təntənəsidir. Yüksək templə başlanan işlər bundan sonra da sürətlə davam etdiriləcək və azadlığa çıxan torpaqlarımız ən qısa zamanda bərpa olunacaq, keçmiş şöhrətini özünə qaytaracaq. Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması Azərbaycanın qalibiyyətini və yüksəlişini bir daha dünyaya bəyan edəcək.*

**Vasif HƏSƏNOV,**
**YAP Ağdam Rayon Təşkilatının Gənclər Birliyinin sədr müavini**







## 5 Oktyabr Beynəlxalq Müəllimlər Günüdür

# Azərbaycan müəllimi ikiqat bayram sevinci yaşayır

## Ağdam təhsili tarixi şöhrətini qaytarır

Bu gün Beynəlxalq Müəllimlər Günüdür, həyatını xalqın işıqlı gələcəyinə həsr edən müqəddəs peşə sahiblərinin bayramıdır. Azərbaycan müəllimləri builki bayramlarını tam başqa ovqatda, böyük sevinc hissi ilə yaşayırlar. Çünki keçmiş şagirdləri, fədakar Vətən övladları onlara Zəfər bəxş ediblər. Canları, qanları bahasına bir qərinəyə yaxın işğal altında olan Qarabağı geri qaytarıblar.

Ali Baş Komandan İlham Əliyevin söylədiyi kimi, bu Zəfəri məhz müstəqillik dövründə yüksək vətənpərvərlik ruhunda tərbiyə alan gənclər qazanıblar. Həmin gənclərin bu ruhda böyüməsinin səbəbkarları isə məhz Azərbaycan müəllimləridir. Onların illərlə çəkdikləri zəhmət hədər getmədi desək, yanılmarıq.

Yeni tədris ilinin başlanğıcında müəllimlərimizin yaşadıqları böyük sevinc hissini paylaşmaq üçün biz də yolumuzu Bakının Kürdəxanı qəsəbəsində müvəqqəti fəaliyyət göstərən Ağdam 38 saylı tam orta məktəbindən saldıq.

### Milli qəhrəmanların adını daşıyan sinif otaqları

Bu məktəb Ağdam rayonu işğal olunduqdan sonra - 1993-cü ildə Bakının Buzovna qəsəbəsindəki uşaq sanatoriyasında fəaliyyət göstərməyə başlayıb. 2019-cu ildən isə hazırkı binaya köçüb. Prezident İlham Əliyev 2019-cu il aprel ayının 5-də Bakının Kürdəxanı qəsəbəsində 810 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış kompleksi ilə tanış olarkən məktəbin də açılışını edib.

Respublikanın bütün orta təhsil müəssisələrində olduğu kimi, 38 saylı məktəbdə də ənənəvi dərslərə start verilib. Dərs vaxtı olduğu üçün siniflərə daxil olmadan, yeni dərs prosesinə mane olmadan dəhlizdə yaradılan maraqlı fotoguşələrə nəzər salırıq. Burada Müzəffər Ali Baş Komandanın qüdrətli ordusunun zəfər yürüşü, Qarabağı azad edən qəhrəmanların şəkillərindən ibarət maraqlı guşələr, şagirdlərin sulu boya ilə çəkdikləri Vətən müharibəsi qəhrəmanlarının rəsmləri diqqəti cəlb edir.

Daha maraqlı və təqdirəlayiq hal odur ki, buradakı sinif otaqları ağdamlı Milli qəhrəmanların adını daşıyır. Hər bir sinif otağının divarına vurulmuş şüşə lövhədə qəhrəmanların şəkilləri əksini tapıb. Bu, ilk növbədə, məktəblərdə şagirdlərin, xüsusən də gələcəyin əsgərlərinin yüksək vətənpərvərlik ruhunda böyüməsi üçün həyata keçirilən ümumi işin bir hissəsidir. Məhz bu belə təbliğati işlərin, müəllimlərin, valideynlərin vətənpərvərlik tərbiyəsinin nəticəsinə Vətən müharibəsində şahidlik etdik.

İndi bu məktəbdə gələcəyin vətənpərvər gəncləri təhsil alır, işğaldan azad edilmiş Ağdamın təhsilini, mədəniyyətini, tarixini, adət-ənənəsini, iqtisadiyyatını, kənd təsərrüfatını, bir sözlə, əvvəlki şöhrətini özünə qaytaracaq gənc nəsil yetişir.

### Çadır məktəbinin yetirməsi...

İlk olaraq məktəbin direktoru Məsud Həmzəyevlə görüşüb söhbətləşirik. 15 yaşında doğma yurdunu tərk etmək məcburiyyətində qalan Məsud müəllimin məcburi köçkünlük həyatında bir yeniyetmə kimi sosial problemlər içində nə qədər ağrı-acılar yaşasa da, arzusu-istəyi içində boğulsa da, oxumaq həvəsi heç vaxt itməyib.

Məsud müəllim məskunlaşdıqları çadır şəhərciklərində müəllimlərin min əzab-əziyyətlə tədris etdiyi dərslərdən yayınmayıb: “Bizə müharibə uşağı deyirlər. Savaş gördük, güllə, mərmi yağışı altında məktəbə getdik, təhsil aldıq. Yeniyetmə vaxtlarımızda torpaqlarımız işğal edildi, elimizdən-obamızdan didərgin düşdük. Məcburi köçkünlük dövründə çox ciddi problemlərlə qarşılaşdıq. Ağdam işğal olunmuşdu və rayonun sakinləri respublikanın müxtəlif bölgələrində məskunlaşmışdılar. Həmin dövrdə təhsili davam etdirmək, şagirdləri bir yerə toplamaq həqiqətən də çətin idi. Təbii ki, bu da təhsildən yayınmaya səbəb olurdu. Məcburi köçkün uşaqları yerləşdikləri çadır şəhərciklərində təhsil alırdılar. Böyük maarifçilik, təhsil ənənələri olan Ağdam məktəblərində boşluqlar yaranırdı. Mən özüm 9-11-ci sinifləri 11 məktəbdə oxumuşam. Yəni 3 ildə 11 məktəb dəyişmişəm. Təkcə bu fakt ağdamlı məcburi köçkün









uşaqlarının hansı məşəqqətlərlə orta təhsil aldıqlarını təsdiqləyir. Orta məktəbi 1995-ci ildə Bərdədə məskunlaşdığımız çadır şəhərciyindəki 14 saylı məktəbdə bitirdim. Taleyin qismətidir ki, ali təhsili başa vurduqdan sonra bitirdiyim məktəbdə 2002-ci ildən coğrafiya müəllimi kimi çalışmağa başladım”.

2004-2006-cı illərdə 14 saylı məktəbin dərs hissə müdiri işləyən Məsud Həmzəyev 2006-cı ildə Ağdam ərazisində köçkünlər üçün yeni salınmış Baharlı-2 qəsəbəsindəki orta məktəbin direktoru təyin edilib. Qeyd edək ki, Vətən müharibəsində göstərdiyi şücaət, oxuduğu muğamlarla hər kəsin qəlbində heykəlini ucaldan şəhid Xudayar Yusifzadə ibtidai təhsilini bu məktəbdə alıb.

Məsud Həmzəyev 2019-cu ilin may ayında təhsil nazirinin müvafiq əmri ilə Kürdəxanıda məcburi köçkünlər üçün inşa edilən şəhərcikdə yerləşən Ağdam 38 saylı tam orta məktəbin direktoru təyin olunub. Gənc olsa da, artıq 19 illik pedaqoji, 15 illik direktorluq təcrübəsi var.

### Azərbaycan müəllimlərinin mübarizəsi

Məsud müəllim deyir ki, hərdən yaşadıqları çətinlikləri yada salanda gözləri önündə sonu xoş ovqatla bitən dramatik film canlanır. Məcburi köçkünlük həyatı, çarəsizlik, ümidsizlik və bütün bunların fonunda Azərbaycan müəllimlərinin çəkdiyi əziyyət...

“Bəzən xatırlayanda öz-özümə deyirəm ki, biz nələrdən keçmişik, nə əziyyətlərə qatlanmışıq. Çünki həmin dövrdə məcburi köçkün düşmüş ailənin, şagirdin, ona dərs deyən hər şeyini itirmiş müəllimin vəziyyəti çox acınacaqlı idi. Bu ağır durumda müəllimlərimiz bizi yalnız buraxmadılar. Çadırlarda, yataqxanalarda, emalatxanalarda, imkan olmayan yerlərdə isə ağacların altında dərs keçirdilər. Mən də bu çətinliklər içərisində oxudum və bir an belə təhsil almaqdan vaz keçmədim. Yaxşı təhsil almağımız üçün ən böyük əziyyəti müəllimlərimiz çəkdi. Onlar 30 ilə yaxın ağrı-acı yaşamış müəllimlər, şəhid valideynləri və bütün varlıqları ilə təhsilə bağlı insanlar idilər. Evini-eşiyini, imkanını, hətta müharibədə əzizlərini itirmiş bir müəllim dərdini-sərini kənara atıb bizə təhsil verirdi, elm öyrədirdi.

Hərdən həmin dövrlə indiki zamanı müqayisə edəndə görürəm ki, Azərbaycan müəllimləri nə o vaxt, nə də bu vaxt dəyişmədilər. O zaman da mübarizə apardılar, bu gün də mübarizə aparırlar. Nəticəsi də göz önündədir. Vətənə, dövlətə əsl vətənpərvər nəsil yetişdirdilər. Bizlər o müəllimlərdən hərtərəfli dərs aldıq və müstəqillik dövrünün gənclərinin əsl vətənpərvər, savadlı, kreativ yetişməsi üçün çalışdıq. Müəllim kimi fəaliyyətə başlayanda qarşıma məqsəd qoydum ki, Ağdamın təhsil ənənələrini bərpa etmək, pedaqoji vəzifənin öhdəsindən layiqincə gəlmək üçün əlimdən gələni əsirgəməyəcəm. Əlbəttə ki, Azərbaycanda məcburi köçkünlük həyatı yaşaya-yaşaya təhsil almış və bu gün məktəblərdə, ali təhsil ocaqlarında dərs deyən müəllimlərimiz var. Məhz həmin müəllimlərin yetişdirdiyi gənc nəsil, müstəqillik dövründə böyüyən gənclər Qarabağı bizlərə qaytardılar.

Ali Baş Komandan İlham Əliyev 44 günlük Vətən müharibəsindəki şanlı Zəfərimizi dəyərləndirərkən vurğuladı ki, bu savaşı müstəqillik dövründə böyüyən vətənpərvər gənclər qazandı. Bu, Azərbaycan müəllimlərinin illərlə çəkdikləri zəhmətin bəhrəsidir. Ona görə də bu gün bizlər üçün ikiqat bayramdır. Yetirmələrimiz 30 illik arzularımızı, xəyallarımızı gerçəkləşdirdilər. Bundan böyük hədiyyə ola bilməz”.

### “Prezidentin etimadını doğrultmağa çalışırıq”

Buzovnadakı sanatoriyada fəaliyyəti zamanı 38 saylı məktəbdə 87 şagird təhsil alırdısa, bu gün onların sayı 371-ə yüksəlib. Ötən tədris ilində məktəbi bitirib ali məktəbə qəbul olunmaq üçün sənəd verən 15 abituriyentin 10 nəfəri yüksək nəticə göstərərək, tələbə adını qazanıb. Bu da 70 faizə yaxın göstərici deməkdir.

Amma direktor hesab edir ki, bu, hələ tam uğurlu nəticə demək deyil. Düzdür, Ağdam məktəblərinin qəbul göstəriciləri bu gün bir çox rayonların göstəricilərindən yüksəkdir. Amma bu, onlarda arxayınlıq yaratmır. Çünki bu göstəricilər 1970-80-ci illərdəki Ağdam məktəblərinin göstəricilərini hələ üstələmir. Ona görə də məqsəd həmin nəticələrdən daha üstün göstəricilər əldə etməkdir: “Bu gün dövlətin təhsilə böyük dəstəyi göz önündədir. Təhsil Nazirliyi də hər zaman dəstəyini əsirgəmir. Hər hansısa problemlə üzləşərkən ilk olaraq Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənova müraciət etdikdə məhdud imkanlara baxmayaraq, davamlı dəstəyini göstərir, himayədarlıq edir. Belə olan halda bizim üzərimizə düşən vəzifə yüksəksəviyyəli tədris prosesini həyata keçirmək, bugünkü qüdrətli Azərbaycana layiqli vətəndaş yetişdirməkdir”.

Məktəbin məzunları arasında Vətən müharibəsinin iştirakçıları, qaziləri də var. Hazırda məktəbdə 36 nəfərlik pedaqoji heyət, 16 texniki işçi çalışır. Ötən tədris ilində qlobal pandemiya səbəbindən dərslərin onlayn sistemdə keçirilməsi prosesində məktəb 87 faizlik müsbət nəticə göstərib. Müəllimlər dərs prosesini yüksək səviyyədə həyata keçiriblər.

Direktor dedi ki, burada söhbət tək texniki məsələlərin yüksək keyfiyyətindən, yəni kompüterin, planşetlərin və internetin mövcudluğundan getmir. Əsas məsələ dərslərin keyfiyyətinin yüksək olmasıdır. Şagirdlər dərslərin maraqlı keçdiyi üçün aktivlik nümayiş etdirirlər.

Məsud müəllim dedi ki, hər bir müəllimin üzərində maarifçiliklə bağlı öhdəlik var. Məktəbin pedaqoji heyəti çalışır ki, bu vəzifənin öhdəsindən layiqincə gəlsin: “Çalışırıq ki, heç bir valideyn narazılıq etməsin, şagirdlərin davamiyyəti yüksək olsun. Onlayın dərslər zamanı bütün dərslərə şəxsən nəzarət etdim. Müəllimlər üzərinə düşən vəzifəni layiqincə yerinə yetirdilər. Bu tədris ilində şagird sayının 371-ə yüksəlməsinin əsas səbəbi onlayın dərslərin keyfiyyəti oldu. Bunu övladlarını məktəbimizdə oxumasını istəyən valideynlərdən öyrəndik”.

Direktorun sözlərinə görə, üzərlərində başqa bir öhdəlik də var. 2019-cu ildə Prezident İlham Əliyev məktəbin açılışı zamanı ümidvar olduğunu bildirib ki, bu təhsil ocağı Ağdamın qabaqcıl məktəblərindən biri olacaq. Bu gün məktəbin pedaqoji heyəti fəaliyyəti ilə həm də dövlət başçısının etimadını doğrultmağa çalışır.

Məsud müəllimi bu cür fəaliyyət göstərməyə sövq edən hissləri başa düşmək o qədər də çətin deyil. Şagird olarkən çəkdiyi əzab-əziyyəti, qarşılaşdığı çətinlikləri göz önünə alan Məsud müəllim istəyir ki, bu gün məcburi köçkün sayılmayan, torpağı azad olan Ağdamın yeni nəsil gəncliyi vətənpərvər, bilikli-savadlı formalaşaraq kreativ ideyaları ilə həm də rayonun təhsil ənənələrinin əvvəlki şöhrətini qaytarsınlar: “Bugünkü şagirdlər artıq keçmiş məcburi köçkünlərin övladları, Vətən müharibəsindəki Zəfəri yaşayan uşaqlardır. Biz isə çalışırıq ki, onlara tariximizi olduğu kimi aşılayaq və gələcək nəsillər keçmişimizi də unutmasınlar”.

### 27 ildən sonra Ağdama dönüş

Məsud müəllim 27 ildən sonra işğaldan azad edilmiş doğma Ağdama da səfər edib. Bu səfər onu həm qürurlandırıb, həm də çox kədərləndirib: “İllər sonra Ağdamı gördüm. Böyük fəxr hissi keçirdim, eyni zamanda, illərdir xəyalımda yaşatdığım o gözəl Ağdamın əvəzinə yerləyeksan edilmiş, viran qalmış bir şəhər görmək olduqca ağır gəldi. Çox dəhşətli bir mənzərə ilə qarşılaşdım. O gözəllikdə şəhərdən əsər-əlamət qalmayıb. Ağdamın görüntülərini televiziyadan, internetdən çox seyr etmişdim. Ancaq burada törədilən vandalizmi gözlərimlə gördüm. Uşaqlığımın keçdiyi şəhəri belə görmək mənə çox ağır idi. Bununla belə, içimdə qürur hissi də var idi. Axı bütün hallarda Ağdam artıq bizdədir və bu, yuxu deyil, həqiqətdir. Bizə bu sevinci, qüruru yaşadan, Ağdamı bizə qaytaran Müzəffər Ali Baş Komandanımız İlham Əliyevə minnətdarıq. Vaxtilə gücsüz dövlətin, müəyyən xəyanətin, zəif komandanlığın ucbatından işğal edilən Ağdam güclü dövlət, müzəffər komandan və qüdrətli ordu sayəsində bir güllə atılmadan belə düşməndən geri alındı. İndi biz Ağdama alnıaçıq, üzüağ gedirik. Vətən müharibəsində bir olub Qələbə qazandığımız kimi, bundan sonra da bir olub, azad edilmiş ərazilərimizin yenidən qurulması, çiçəklənməsi üçün dövlətimizə, Prezidentimizə dəstək olmalıyıq”.

Məsud müəllim Ağdamda səfərdə olarkən maraqlı təklif də səsləndirib və fikirləri müsbət qarşılanıb. Direktor təklif edib ki, 38 saylı məktəbdə oxuyan şagirdlərin Ağdama səfəri təşkil olunsun. Şagirdlər düşmən tərəfindən dağıdılmış, yerləyeksan edilmiş Ağdamın qalıqlarını öz gözləri ilə görsünlər: “Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynovun iştirakı ilə keçirilən görüşdə təklif etdim ki, belə bir səfər təşkil olunsun və şagirdlər gözləri ilə möhtəşəm Ağdamın hansı vəziyyətə salındığını görsünlər, erməni vandalizmi ilə bağlı onlarda təsəvvür yaransın və qurulacaq daha möhtəşəm Ağdamın keçmişini, gələcəyini müqayisəli şəkildə gələcək nəsillərə çatdırsınlar. Təklifim çox müsbət qarşılandı. Yaxın zamanlarda bu səfərin təşkil olunacağı gözlənilir”.

Direktorla söhbətimiz zamanı zəng vurulur və tənəffüs elan edilir. Biz də fürsətdən istifadə edib sinif otaqlarında yaradılmış şəraitlə tanış oluruq. Otaqlar səliqə-sahmanlı və lazımi avadanlıqlarla təchiz edilib. Sinif otaqlarında Vətən müharibəsi, ordumuzun şanlı Zəfəri, şəhidlərimiz, qəhrəmanlarımız haqqında məlumatlar, fotoguşələr var.

Beləliklə, Ağdamın 38 saylı tam orta məktəbində gördüklərimiz, Məsud müəllimdən eşitdiklərimiz bizi həm duyğulandırdı, həm də həqiqətən xoş təəssürat yaratdı. Bir daha bəlli oldu ki, Azərbaycanın fədakar müəllimləri hər zaman peşələrinə sadiq, qətiyyətli və mübarizdirlər. 44 günlük Qələbə dastanının yazılmasında məhz Azərbaycan müəllimlərinin də böyük rolu var.

Biz də məktəbin müəllim heyətini bir daha bayram münasibətilə təbrik edib, yorulmadan çalışdıqları müqəddəs işlərində uğurlar arzulayaraq sağollaşırıq. Gününüz mübarək, əziz müəllimlər!

**Rəşad BAXŞƏLİYEV,**
**“Azərbaycan”**







# Müzəffər Sərkərdənin qüdrətli Ordusu



# Şanlı qələbə tarixi



Mahiyyət baxımından Vətən müharibəsi 1988-ci ilin fevralından - ermənilər Ağdamda Əli ilə Bəxtiyarı güllə ilə öldürəndən başlayıb. Xalq bu müharibənin əsgəri olmağı özünə mənəvi borc bilib. Lakin Birinci Qarabağ müharibəsi zamanında ölkəmizdəki siyasi vəziyyət, dövlətçilikdə yol verilən nöqsanlar, milli qarşıdurmalar, şəxsi ambisiyalar uğurlu hərbi əmliyyatlar aparmağa imkan vermirdi.

Böyük şəxsiyyət Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra ordu quruculuğunda əsaslı dönüş yaradıldı, aparılan islahatlar qısa müddətdə hərbi birləşmələrin nizami ordu kimi formalaşmasını təmin etdi. Horadiz əməliyyatı ordunun qələbə ruhunu daha da artırdı. Qazanılan qələbə xalqımızın nəyə qadir olduğuna böyük inam yaratdı.

Azərbaycan Prezidenti cənab İlham Əliyev ordu quruculuğu istiqamətində də Ümummilli Liderin siyasi kursunu uğurla davam etdirdi. Bu sahədə həyata keçirilən genişmiqyaslı islahatlar, müxtəlif təyinatlı təlimlər şəxsi heyətin döyüş hazırlığını, Ali Baş Komandanın ön xətdə, səngərlərdə hərbi xidmətdə fərqlənənləri təltif etməsi Silahlı Qüvvələrin şəxsi heyətinin mənəvi-psixoloji hazırlığını yüksəldirdi. BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrini yerinə yetirməyən Ermənistan regionda status-kvonu saxlamaq üçün danışıqlardan yayınırdı.

Əlbəttə ki, Azərbaycanın xarici siyasəti bu vəziyyətlə barışmazdı. Preziden İlham Əliyev demişdi: "Azərbaycan xalqı, Azərbaycan dövləti heç zaman Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaranmasına imkan verməz". Bu qətiyyət Ermənistanın xarici siyasətini dəyişdirməli idi. Lakin ermənilik xisləti buna imkan vermədi.

Ermənistan atəşkəsə əməl etmədi, təmas xəttində irili-xırdalı təxribatlar törətməkdə davam etdi. 2016-cı ilin aprelində belə təxribatlardan birinin qarşısı alındı, düşmən min hektarlarla ərazidən çıxarıldı. Ermənistan 2020-ci ilin iyulunda Tovuz rayonu istiqamətində dövlət sərhədlərimizi pozdu, Azərbaycanın ordu hissələri bu hücumun da qarşısını qətiyyətlə aldı.

Ermənistan 2020-ci il sentyabrın 27-də bütün istiqamətlərdən müxtəlif təyinatlı silahlarla mövqelərimizə hücum etdi. Ordu hissələrimiz bu hücumun da qarşısını qətiyyətlə aldı. Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin əmri ilə əks-hücum əməliyyatı başladı. Bu əmr Vətən uğrunda döyüş əmri idi...

Ermənistan işğal etdiyi ərazilərdə müdafiə məqsədilə mühəndis-istehkam sistemi yaratmış, 28 il onu təkmilləşdirmş, möhkəmlətmişdi. Vətən müharibəsi başlayanda Azərbaycan Ordusu düşmənin ümid yerlərindən biri olan müdafiə səddini darmadağın etdi. Müdafiə sistemi yarılan düşmən ardıcıl mövqe məğlubiyyətlərinə məruz qaldı. Azərbaycan əsgəri döyüşə-döyüşə qələbə qazanır, qələbə qazana-qazana irəliləyirdi. Qarabağda strateji yüksəkliklər, yaşayış məntəqələri işğaldan azad edilirdi.

Ermənistan döyüşdə məğlubiyyətinin acısını mülki əhalidən çıxmağa cəhd göstərir, Gəncə, Mingəçevir, Tərtər, Bərdə şəhərlərinə qadağan olunmuş müxtəlif raket zərbələri vururdu. Beynəlxalq ictimaiyyət buna reaksiya verirdi, ancaq belə reaksiyalar işğalçı dövləti iyrənc niyyətindən çəkindirmirdi.

Prezident İlham Əliyev xalqa müraciətində xüsusi vurğulamışdı: "Mən dəfələrlə demişdim ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq. Dəfələrlə demişdim ki, nəyin bahasına olursa-olsun biz öz torpaqlarımızı geri qaytaracağıq. Dəfələrlə demişdim ki, düşmən öz xoşu ilə torpaqlarımızdan çıxmasa, biz onu torpaqlarımızdan qovacağıq və belə də oldu. Biz Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq, güc topladıq, bütün gücləri səfərbər etdik, ordumuzu gücləndirdik, ölkə iqtisadiyyatını gücləndirdik, ölkəmizin nüfuzunu qaldırdıq və öz tarixi missiyamızı şərəflə yerinə yetirdik".

Vətən müharibəsi xalqın müharibəsi idi, belə desək, azərbaycançılığın ermənikliklə döyüşü idi. Vətənpərvərlik işğalçılığa qalib gəldi. Bu Zəfər həm torpaqlarımızın işğaldan azad edilməsi ilə nəticələndi, həm də Azərbaycanın beynəlxalq nüfuzunu yüksəltdi. BMT Təhlükəsizlik Şurasının, ATƏT-in Minsk qrupunun illərlə həll edə bilmədiyi problemi Azərbaycan Ordusu döyüşlə həll etdi. Bu fakt təsdiqlədi ki, Azərbaycan Ordusu qüdrətlidir, onun gücünü beynəlxalq təşkilatlar da etiraf edir.

Vətən müharibəsi Türkiyə-Azərbaycan münasibətlərinin ötən əsrin əvvəllərində olan nümunəsinin məntiqi davamı idi. O dövrdə Türkiyənin istiqlal savaşında Azərbaycan Türkiyənin yanında olmuşdu, Qafqaz İslam Ordusu Bakını bolşevik-eserlərdən təmizləmişdi. XXI əsrin ilk qərinəsində erməniliyin qəti məğlubiyyəti olan döyüşlərdə də bir amalın icraçıları kimi bu iki qardaş dövlət bir oldu.

Azərbaycan Prezidenti, Müzəffər sərkərdə İlham Əliyev xalqa müraciətində demişdi: "Biz nəinki XXI əsrin müharibəsini nümayiş etdirmişik, biz dünyada heç vaxt olmayan Qələbəni qazanmışıq. Çətin relyef şəraitində düşmənin bir neçə istehkamının qarşısında biz peşəkarlıq, məharət, güc, hərbi elm qoy-duq və düşməni torpaqlarımızdan qovduq".

Ermənistan xisləti etibarilə bəşəriyyətə düşmən kəsilib. O, işğal etdiyi ərazilərdə bütün binaları, evləri, mədəniyyət abidələrini dağıdıb. Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərdə olanda xalqa müraciətlərində bu amilə də diqqət çəkirdi, erməniliyin nəticələrinin aradan qaldırılacağını, şəhərlərin, kəndlərin yenidən qurulacağını bildirirdi: "Bu gün azad edilmiş torpaqlara gələn hər bir insan erməni vəhşiliyinin təzahürlərini öz gözləri ilə görür. Bizim bütün şəhərlərimiz yerləyeksan edilib, bütün tarixi abidələrimiz, məscidlərimiz ermənilər tərəfindən ya tam dağıdılıb, ya da təhqir olunub. 67 məsciddən 65-i tamamilə dağıdılıb, qalan yarıdağılmış məscidlərdə mənfur düşmən bizi təhqir etmək üçün, bütün dünya müsəlmanlarını təhqir etmək üçün heyvan saxlayırdı, inək, donuz saxlayırdı..."

Vətən müharibəsinin başlanmasının birinci ildönümü Anım günü kimi qeyd edildi. Bu da tarixə tarixi sədaqətin nəticəsidir. Həmin gün Vətən müharibəsində Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş əsgər və zabitlərimizə, qətlə yetirilən mülki vətəndaşlara və itkin düşmüş soydaşlarımıza ehtiram əlaməti olaraq Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə yürüş təşkil edildi. Bu yürüş bütün dünyanın bəşəri düşüncəlilərinin yaddaşında illərlə yaşayacaq.

Dövlət başçısı şəhidlərin xatirəsini əbədiləşdirmək üçün Bakı şəhərində inşa olunacaq Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin təməlqoyma mərasimində iştirak etdi.

8 noyabr da tarixdir, 10 noyabr da. Hər iksinin başlanğıcı 27 sentyabrdır... Vətəni bu tarixi günlərin mahiyyəti səviyyəsində sevirik...

**Səbinə XASAYEVA,**
**Milli Məclisin deputatı**

## ZƏFƏR gündəliyi
## 5 oktyabr 2020-ci il

Cəbhənin bütün istiqamətində döyüşlər gedir. Səhər saatlarında Azərbaycan Hava Hücumundan Müdafiə Qüvvələrinin Radiolokasiya sistemlərinin texniki vasitələri Ermənistanın Cermuk, Qafan və Berd rayonları ərazisində yerləşən start mövqelərindən Azərbaycan ərazisinə atılan raket buraxılışını qeydə alıb.

Bütün cəbhəboyu sıxışdırılan düşmən artıq bir neçə gündür ki, Ermənistan ərazisindən Azərbaycan ərazisində əhalinin kompakt yaşadığı məntəqələrə, mülki infrastruktura sistematik raket zərbələri endirir. Eyni zamanda Ermənistanın müdafiə nazirliyi Azərbaycan ərazisinin Ermənistandan atəşə tutulması faktını inkar edir və bunun işğal olunmuş ərazilərimizdən həyata keçirildiyini bildirir. Ermənistanın bu cür məsuliyyətsiz və cinayətkar hərəkəti məqsədyönlü şəkildə Azərbaycanı cavab tədbirləri görməyə təhrik edir.



❖ ❖ ❖

Beyləqan, Bərdə və Tərtər şəhərləri, Füzuli rayonunun Horadiz şəhəri, Ağcabədi rayonunun kəndləri, Tərtər şəhəri və rayonun kəndləri, Goranboy və Göygöl rayonlarının əraziləri Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulur.

❖ ❖ ❖



İşğaldan azad edilmiş Talış kəndində Azərbaycan bayrağı dalğalanır. Müdafiə Nazirliyi videogörüntülər yayır.

❖ ❖ ❖

Ermənistanın Berd rayonu ərazisindən Gəncə şəhəri, həmçini Ağcabədi şəhəri atəşə tutulur, yaralılar var.

❖ ❖ ❖

Döyüşlərdə erməni hərbçilərinin atıb qaçdığı və bölmələrimizin məhv etdiyi düşmənin silah və texnikaları nümayiş etdirilir.

Qoşunlarımızın zərbələri nəticəsində Ermənistan silahlı qüvvələrinin cəbhənin Ağdərə istiqamətində 62-ci artilleriya alayının 2, 41-ci artilleriya alayının 2 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi məhv edilir.

❖ ❖ ❖

Prezident İlham Əliyev Türkiyənin "TRT Haber" televiziya kanalına müsahibə verir. Dövlət başçısı deyir ki, hazırda müxtəlif istiqamətlərdə şiddətli döyüşlər gedir. Artıq Cəbrayıl şəhəri işğaldan azad edilib və Cəbrayıl rayonunun bir neçə kəndi də düşməndən təmizlənib.

Dövlət başçısı vurğulayıb ki, bundan sonra da Azərbaycan Ordusu öz missiyasını uğurla icra edəcək və Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq: "Bizim əsas məqsədimiz bundan ibarətdir. Bu məqsəd tarixi ədaləti təmin edəcək".

Ali Baş Komandan bir daha savaşın dayandırılması ilə bağlı təkliflərini səsləndirir.



Bildirir ki, Ermənistanın baş naziri Azərbaycan xalqından üzr istəməlidir. Deməlidir ki, Qarabağ Ermənistan deyil. Azərbaycanın ərazi bütövlüyünə hörmət etməlidir.

Bununla yanaşı, Ermənistan silahlı qüvvələrinin torpaqlarımızdan nə zaman çıxacağını söyləməli və bu şərtlər Minsk qrupunun həmsədrləri tərəfindən təsdiq edilməlidir. O halda təbii ki, atəşkəs bərpa olunacaq və beləliklə, bu məsələ müzakirə yolu ilə həll olunacaq və Azərbaycan xalqı öz doğma torpaqlarına qayıdacaq: "Amma biz bilməliyik ki, bu, nə zaman olacaq. Çünki biz 30 ildir ki, gözləyirik, 30 il bizə verilən vədlər, deyilən sözlər həyatda reallaşmır, gerçəkləşmir. Azərbaycan xalqı artıq buna dözə bilmir, Azərbaycan dövləti dözə bilmir. Bizə konkret, real tarix deyilməlidir ki, onlar nə zaman hansı bölgədən çıxacaqlar".

❖ ❖ ❖



Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində paylaşım edir. Paylaşımda deyilir:

"Əziz həmvətənlər! Rəşadətli Ordumuz əzəli Azərbaycan torpaqlarını erməni işğalından azad etmək üçün uğurlu əks-hücum əməliyyatı apardığı bir vaxtda düşmən öz məkrli niyyətlərini göstərməkdən əl çəkmir. Qızğın döyüşlərin davam etdiyi bütün həftə ərzində Ermənistan vicdansızcasına feyk xəbərlər tirajlayır. Bu şiddətli hücumda beynəlxalq birliyi fəal surətdə yanlış məlumatlandıran erməni diasporu xüsusi rol oynayır. Bu gün biz hamımız həqiqətən tarixi hadisələrin şahidləriyik! Lakin biz baş verənləri sadəcə kənardan müşahidə edə bilmərik.

Bizim hər birimiz Böyük Qələbə anını yaxınlaşdırmaq üçün əlimizdən gələni etməyə borcluyuq. Deməli, biz hamımız erməni yalanını ifşa etmək üçün maksimum səy göstərməyə borclu olan əsgərlərik. Mən sizin hər birinizi erməni təbliğatının feyklərini ifşa etməyə və erməni təcavüzü haqqında həqiqətləri bütün mümkün platformalarda beynəlxalq birliyə çatdırmağa çağırıram! Azərbaycanı özünün Vətəni hesab edən hər kəs səsini ucaltmalı və ermənilərin yalanını təkzib etməlidir! Uca Tanrı bizim Ordumuzu, xalqımızı və Vətənimizi qorusun!"

❖ ❖ ❖


İlham Əliyev
@azpresident
Bu gün Azərbaycan ordusu Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndlərini və müxtəlif istiqamətlərdə bir neçə strateji yüksəkliyi azad etmişdir. Qəhrəman ordumuzun uğurlu əməliyyatı davam edir. Qarabağ Azərbaycandır!

Günün sonunda Prezident xalqa daha bir müjdəli xəbər verir.

İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində yazır:

"Bu gün Azərbaycan ordusu Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndlərini və müxtəlif istiqamətlərdə bir neçə strateji yüksəkliyi azad etmişdir. Qəhrəman ordumuzun uğurlu əməliyyatı davam edir. Qarabağ Azərbaycandır!"

**Rəşad BAXŞƏLİYEV,**
**"Azərbaycan"**



# Tərtərdə "Vətən bağı - şəhidlər" parkında 4 minə yaxın ağac əkilib





Tərtər rayon Şıxarx qəsəbəsi ərazisində şəhidlərin xatirəsinə yeni salınmış "Vətən bağı-şəhidlər" parkında ağacəkmə aksiyası keçirilib.

Aksiyada Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov, Milli Məclisin deputatı Sahib Alıyev, hüquq mühafizə orqanlarının rəhbərləri, şəhid ailələrinin üzvləri, qazilər, müharibə iştirakçıları, rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları öncə Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin xatirəsini anıblar. RİH başçısı Müstəqim Məmmədov ağacəkmə askiyasında iştirak edən şəhid ailələrinin qayğıları ilə maraqlanıb. Bildirib ki, Vətən uğrunda döyüşlərdə igidlik göstərmiş şəhidlərimizin həyat yolu və qəhrəmanlığı hər bir gənc üçün örnəkdir. Sonra o, ötən il sentyabrın 27-də başlayan və tarixə 44 günlük müharibə kimi düşən Vətən müharibəsindən, Milli Ordunun qazandığı şanlı Qələbədən, şəhidlərin gənclərə nümunə olan qısa, lakin şərəfli ömür yolundan danışıb. Vətən müharibəsində şəhidlərin qanının yerdə qalmadığını, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad edildiyini, böyük Qələbənin tarixi əhəmiyyətini xüsusi qeyd edib.

Şəhid ailələrinin üzvləri övladlarının əziz xatirəsinin yad olunması üçün təşkil olunan tədbirlərə görə minnətdarlıqlarını bildiriblər.

Aksiya çərçivəsində yeni salınmış parkda 3000 meyvə ağacı, 750 eldar şamı və 200 sərv ağacı əkilib.

**Lazım QULİYEV,**
**"Azərbaycan"**

# Noyabr Zəfərini gələcəkdə biz gənclər yaşatmalıyıq

Həmişə arzularla yaşamağı sevmişəm. Atam və anam isə heç vaxt arzularıma sədd çəkməyib. Elə ilk dəfə məktəb seçimini də özüm etmişəm - anamın işlədiyi Yasamal rayon 158 saylı tam orta məktəbdə təhsil almaq istəmişəm.

İbtidai sinif müəllimim Zəmləkət xanım bizə deyərdi ki, ilk addımlarınızı möhkəm atın, bu, uğurlarınızın açarı olacaq. Sonra da əlavə edərdi ki, sizin möhkəm addımınız yaxşı oxumaqdır.

Hər bir insanın özünü dərk etməyə başladığı illərdən ən böyük arzusu istədiyi peşəyə yiyələnməkdir. Məktəb vaxtlarından oxumağa olan həvəsim, ailəmin təhsilə münasibətdə tələbkarlığı gələcək planlarımın başlanğıcı oldu.

Bir gün hansısa filmdə izlədiyim hüquqşünas obrazı məni hüquq müdafiəçisi, ədalət bələdçisi olmağa sövq etdi. 9-cu sinifdə hüquqşünas olmağa qərar verdim. Həmin vaxtdan imtahana qədər olan dövrədək arzumun ardınca getdim. İmtahandan sonra qəbul xəbərimi biləndə başa düşdüm ki, uzun illərin zəhməti hədər getməyib.

Bir hadisəni qeyd edim. Vətən müharibəsi başlayanda atam dedi ki, qızım, torpaqlarımızın azad edilməsinə sənin qəbul imtahanındakı qələbən ən yaxşı cavab olar. Noyabrda Ali Baş Komandan İlham Əliyevin yüksək fədakarlığı, ordumuzun cəsarəti nəticəsində düşmən üzərində qələbə çaldıq. Televizorda qələbəmiz elan ediləndə atam üzümə baxdı. Onun gözlərində sevinclə bərabər, yaş da gördüm. Həmin an atamı qucaqlayıb dedim: "Qaldı mənim qələbəm".

Vaxt yetişdi və mən verdiyim sözə əməl etdim. Həmin gün atam qapıdan içəri girəndə əsgəri addımlarla onun üstünə yeriyib hərbi salam verərək qələbəmi elan etdim. Beləcə, ailəmə sevinc dolu daha bir xoşbəxtlik yaşatdım.

Peşəkar hüquqçu olmaq mənim ən böyük arzumdur. Hüquqi dövlətdə yaşayırıq və insanların hüquqlarının qorunması bu sahədə çalışanların müqəddəs borcudur. Mən də bu borcu ödəmək, ölkəmə layiqli vətəndaş olmaq üçün var gücümlə çalışıram.

**Fəridə HACIZADƏ,**
**BDU-nun Hüquq fakültəsinin**
**I kurs tələbəsi**

# Gəncədə Ümumrespublika "Xəmsə" Festivalının bağlanış mərasimi keçirilib






Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyinin təşkilatçılığı ilə "Nizami Gəncəvi ili" çərçivəsində keçirilən Ümumrespublika "Xəmsə" Festivalının Gəncə şəhərində final mərhələsi və bağlanış mərasimi olub.

AZƏRTAC xəbər verir ki, günün birinci yarısında festival iştirakçıları Gəncədə Nizami Gəncəvinin məqbərəsini və Nizami Gəncəvi Muzeyini ziyarət ediblər. Sonra Gəncə Şəhidlər xiyabanında şəhidlərimizin xatirəsi anılıb.

Ümumrespublika "Xəmsə" Festivalının 9 regional turunda finala vəsiqə qazanan 16 komanda Gəncə Şəhər Heydər Əliyev Mərkəzində final mərhələsi üzrə qrup və yarımfinal oyunlarında birincilik uğrunda mübarizə aparıb. Final oyununun nəticələrinə əsasən Səbail komandası birinci, Gəncə komandası ikinci və Ucar komandası üçüncü yerin sahibi olub.

Heydər Əliyev Park Kompleksində Ulu Öndərin abidəsi önünə tər gül dəstələri düzülüb, dahi rəhbərin əziz xatirəsi böyük ehtiramla yad edilib.

Daha sonra Vətən müharibəsi şəhidlərinin xatirəsinə həsr olunmuş ağacəkmə kampaniyası keçirilib.

YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov jurnalistlərə açıqlamasında bildirib ki, Gəncə şəhərinin Azərbaycan tarixində özünəməxsus yeri var. Bu şəhər, eyni zamanda, Azərbaycan ədəbi xəzinəsinə misilsiz töhfələr vermiş Nizami Gəncəvinin vətənidir. Həmçinin Azərbaycan Demokratik Respublikasının ilk paytaxtı olub.

44 günlük Vətən müharibəsindən də danışan T.Budaqov bildirib ki, Ermənistanın Gəncədə mülki sakinləri hədəf alan raket hücumları şəhər sakinlərini qorxutmadı, onlar böyük dəyanət və Vətənə sevgi nümunəsi göstərdilər.

2021-ci ilin Prezident İlham Əliyev tərəfindən "Nizami Gəncəvi ili" elan olunduğunu xatırladan T.Budaqov qeyd edib ki, Yeni Azərbaycan Partiyası tərəfindən bütün bölgələrdə Nizami irsinin öyrənilməsi, onun dünya mədəniyyətinə, ədəbiyyatına verdiyi töhfələrlə bağlı "Xəmsə" festivalı keçirilib. Bu gün isə Gəncədə festivalın yekunu təşkil olunub.

Ağacəkmə kampaniyasından sonra festivalın bağlanış mərhələsi keçirilib.

Festivalın bağlanış mərasimi Vətən müharibəsi şəhidlərinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanıb. Tədbirdə YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov, Milli Məclisin deputatları Naqif Həmzəyev, Müşfiq Cəfərov, Pərvin Kərimzadə, YAP Gənclər Birliyinin üzvləri və şəhər icra hakimiyyətinin nümayəndələri iştirak ediblər.

YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov festivalda qalib gələn gəncləri təbrik edərək Gəncə şəhərinin tariximizdə müstəsna yerə malik olduğunu bildirib.

"Nizami yaradıcılığı Azərbaycan klassik ədəbi-mədəni irsində xüsusi yerə malikdir. Ümummilli Lider Heydər Əliyev Nizami irsinə hər zaman böyük diqqət və qayğı ilə yanaşıb. Hələ 1979-cu ildə Ulu Öndərin təşəbbüsü ilə Nizami Gəncəvi irsinin öyrənilməsi, onun əsərlərinin çap etdirilməsi və tədqiqi haqqında qərar imzalanmışdır. 1981-ci ildə Heydər Əliyevin rəhbərliyi ilə Nizami Gəncəvinin 840 illik yubileyi İttifaq səviyyəsində təntənəli şəkildə qeyd olunmuş, Nizami irsinin tədqiqi və əsərlərinin bütün dünyada təbliği, yenidən qiymətləndirilməsi istiqamətində tədbirlər həyata keçirilmişdir. Prezident İlham Əliyevin sərəncamına əsasən 10 il bundan öncə Nizami Gəncəvinin 870 illiyi də ölkəmizdə təntənəli şəkildə qeyd olunub. Bu il isə Prezident İlham Əliyevin Sərəncamı ilə 2021-ci il ölkəmizdə "Nizami Gəncəvi ili" elan edilib. Bu festivalda iştirak edən hər bir gənc Azərbaycanın gələcəyi, Azərbaycanın bundan sonrakı inkişafı üçün öz bilik və bacarığını əsirgəməyəcək bir vətəndaşdır", - deyə T.Budaqov qeyd edib.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov çıxış edərək deyib ki, Azərbaycanda "Nizami Gəncəvi ili" elan edilməsi ilə əlaqədar həm ölkəmizdə, həm də ölkə hüdudlarından kənarda silsilə tədbirlər keçirilir. Bu çərçivədə Gəncə şəhəri də müxtəlif layihələrə evsahibliyi edir. Sevindirici haldır ki, gənclər keçirilən tədbirlərə böyük maraq göstərirlər.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev qalib gəncləri və iştirakçıları təbrik edərək gələcək həyatlarında uğurlar arzulayıb.

Partiyanın Gənclər Birliyinin sədri Bəxtiyar İslamov qeyd edib ki, layihənin məqsədi Azərbaycan gəncliyinin dünyagörüşünə, fərdi inkişafına töhfə vermək, onlar arasında mövcud əlaqələri inkişaf etdirmək və milli-mənəvi dəyərlərimizə, tariximizə bağlı vətəndaş kimi formalaşmalarına dəstək olmaqdır.

Festivalda qalib gəlmiş komandaların üzvləri kubok, diplom və hədiyyələrlə təltif olunublar.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2021-ci il 5 yanvar tarixli sərəncamına əsasən 2021-ci il ölkəmizdə "Nizami Gəncəvi ili" elan olunub. "Nizami Gəncəvi ili" çərçivəsində ölkəmizdə keçirilən tədbirlərdən biri də YAP Gənclər Birliyi tərəfindən təşkil edilən Ümumrespublika "Xəmsə" Festivalıdır. Layihə Azərbaycanda ilk dəfə açıq havada keçirilən intellektual festivaldır. Festivalda ümumilikdə 84 şəhər və rayondan 420 gənc iştirak edib. Komandaların tərkibi Yeni Azərbaycan Partiyasına üzv və bitərəf gənclərdən formalaşdırılıb.

# Nizami rayonunda Milli Qəhrəman Yuriy Kovalyovun büstünün açılışı olub



**Nizami rayonunda Yuriy Kovalyov adına 229 nömrəli tam orta məktəbdə Milli Qəhrəmanın büstünün açılış mərasimi olub.**







Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatından AZƏRTAC-a bildiriblər ki, mərasim iştirakçıları əvvəlcə 44 günlük Vətən müharibəsinə və Zəfər tariximizə həsr edilmiş rəsm sərgisi ilə tanış olublar. Sonra məktəbin məzunu olmuş 7 şəhidin əziz xatirəsinə hörmət əlaməti olaraq ağaclar əkiblər.

Azərbaycan bayrağının gətirilməsindən, Dövlət Himninin səsləndirilməsindən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçmiş şəhidlərimizin, müstəqil Azərbaycanın qurucusu Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə çıxış edən Milli Qəhrəman Yuriy Kovalyovun qardaşı Vitaliy Kovalyov onlara göstərilən diqqət və qayğıya görə Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkürünü bildirib, eləcə də büstün hazırlanması, tədbirin təşkili üçün Yeni Azərbaycan Partiyasının və Missiya Media Qrupunun rəhbərliyinə minnətdarlıq edib.

Sonra büstün açılışı olub, Milli Qəhrəman Yuriy Kovalyov haqqında videoçarx nümayiş etdirilib.

Məlumat verilib ki, Yuriy Kovalyov 1965-ci il mayın 29-da anadan olub. 1981-ci ildə Bakının Nizami rayonundakı 229 nömrəli tam orta məktəbi bitirib. O, 1990-cı il sentyabr ayının 15-də Daxili İşlər Nazirliyinin Xüsusi Təyinatlı Polis Dəstəsinə qəbul edilib, Azərbaycanın bir çox döyüş bölgələrində mərdliklə vuruşub. Kovalyov Goranboy rayonunun kəndlərinin azad edilməsində böyük şücaət göstərib. 1991-ci il 3 oktyabrda Xocavənddə növbəti hərbi tapşırıqdan qayıdarkən düşmənlə döyüşdə qəhrəmancasına vuruşaraq şəhid olub. 1992-ci ildə Azərbaycan Respublikasının Milli Qəhrəmanı adına layiq görülən Yuriy Kovalyov Şəhidlər xiyabanında dəfn edilib.

Mərasimdə çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov deyib ki, Azərbaycan dövləti və cəmiyyəti həm Birinci Qarabağ müharibəsinin, həm də Vətən müharibəsi qəhrəmanlarının, ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda canlarını fəda etmiş şəhidlərimizin ruhuna böyük ehtiram, onların ailələrinə və qazilərimizə yüksək diqqət, qayğı göstərir. T.Budaqov bildirib ki, Azərbaycanın ərazi bütövlüyünün və tarixi ədalətin bərpası müstəsna əhəmiyyətə malik, dövlətçilik tariximizdə bənzəri olmayan Zəfər salnaməsi, Qələbə dastanıdır.

Çıxış edən Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, Azərbaycan Rus İcmasının rəhbəri, YAP İdarə Heyətinin üzvü, deputat Mixail Zabelin, Bakı Şəhər Təhsil İdarəsinin müdiri Mehriban Vəliyeva, Milli Məclisin deputatları Sədaqət Vəliyeva, Rasim Musabəyov, Nizami Rayon İcra Hakimiyyəti başçısının müavini İldırım Mehdiyev, 229 nömrəli məktəbin direktoru Vüsalə Məmmədova və başqaları Milli Qəhrəman Yuriy Kovalyovun igidliyi, şücaəti, eləcə də 44 günlük Vətən müharibəsindəki Zəfər, şəhid ailələrinə, qazilərə olan dövlət qayğısı barədə danışıblar.

Mərasimə Milli Qəhrəmanın qızının və nəvəsinin ifasında bədii hissə ilə yekun vurulub.

# O, həkim olmaq istəyirdi



**Ailənin böyüyü, sevimlisi olan 15 yaşlı Nigar həkim olmaq arzusu ilə yaşayırdı. Bu arzusunu gerçəkləşdirmək üçün müəllimlərinin verdiyi tapşırıqları böyük həvəslə yerinə yetirirdi. Oxuduğu hər mövzuya dərindən yiyələnir, hətta yeri gələndə sinif yoldaşlarına da kömək edirdi.**

Bütün fənlərdən yüksək qiymətlər alması Nigarın universitetə daxil olmaq arzusunu gündən-günə gerçəkləşdirirdi. Cəmi bircə il qalmışdı. Hərdən ailəsində söhbət düşəndə darıxdığını, bu bir ilin də tez keçməsini arzuladığını bildirirdi.

Oktyabrın 17-də gecə saatlarında erməni vandallarının Gəncəyə atdıqları raket bir çoxları kimi Nigarın da arzusunu ürəyində qoydu. Raketlər şəhərdə böyük dağıntılar törətdi, düşdüyü yerin ətrafında, demək olar ki, nə qədər ev vardısa, hamısını yerləyeksan etdi.

Bu qətliamda ailə üzvlərini itirənlərdən biri də Rövşən Əsgərov oldu. Dağıntı zamanı Rövşənin atası Suliddin kişi, qardaşı Bəxtiyar, bacısı Sevil və onun 10 aylıq körpəsi Narin, eləcə də böyük bacısının qızı - 15 yaşlı Nigar erməni cinayətinin qurbanı oldular. Rövşən özü dağıntılar altından yüngül xəsarətlə çıxarıldı. Ağır yaralanan anası ilə 15 yaşlı oğlunu isə xəstəxanaya yerləşdirdilər.

Partlayışın dalğası Nigarın təhsil aldığı 29 nömrəli tam orta məktəbə də xeyli ziyan vurdu. Bu, elə məktəbin giriş qapısında hiss olunurdu. Qapı-pəncərələr tökülmüş, içəridəki əşyalar tamamilə yararsız vəziyyətə düşmüşdü.

Məktəbin direktoru ermənilərin raket hücumu nəticəsində dünyasını dəyişən 10-cu sinif şagirdi Nigar Əsgərova haqqında ətraflı məlumat verdi. O, masanın üstünə bir neçə sənəd qoydu və ilk sözü bu oldu: "Nigar bizim əlaçı şagirdlərimizdən idi. O, əlaçı olmaqla yanaşı, həm də bacarıqlı təşkilatçı idi. Məktəbdə keçirilən bütün tədbirlərdə iştirak edirdi. Bir sözlə, Nigar bizim fəxrimiz idi".

Sinif rəhbəri Bəsti Cəfərova da dedi ki, belə işgüzar və bacarıqlı şagirdlər az-az olur: "Siniflə bağlı nə olurdusa Nigara tapşırırdım. Çünki o, tapşırıqları yüksək səviyyədə yerinə yetirirdi. Onun 9-cu sinfi bitirməsi barədə ümumi orta təhsil haqqında attestatının surətini nəzərdən keçirə bilərsiniz. Bütün fənlər üzrə qiymətləri 4 və 5-dir. Nigarın ölümü məni çox sarsıtdı".

Nigarın tarix müəllimi Aybəniz Süleymanova, riyaziyyat müəllimi Zümrüd Süleymanova və coğrafiya müəllimi Elgiz Hüseynov isə bildirdilər ki, bütün müəllimlər mehriban və işgüzarlığına görə Nigarla həmişə fəxr edirdilər.

Onu da qeyd edək ki, terror zamanı 29 nömrəli tam orta məktəbin Nigardan savayı bir neçə şagirdi də yaralanmışdır. Onlardan biri Nigarın əmisi oğlu Amin idi. O da partlayış zamanı dağılan evlərin altında qalmışdır. Xilasedicilərin köməyi ilə dağıntılar altından çıxarılan 6-cı sinif şagirdi xəstəxanada müalicə olundu.

Məktəbin birinci sinif şagirdi Məryəm Xəlilli və qardaşı - 6-cı sinif şagirdi Orxan Xəlilli isə Nigarın taleyini yaşayıblar. Onlar da erməni vəhşiliyinin qurbanı olublar - dağıntılar altında qalaraq həyatlarını itiriblər. Onlardan başqa, erməni terroru məktəbin digər şagirdi Ləman Qəhrəmanovanın da həyatına son qoyub.

Məktəbə yaxın ərazidə yaşayan və 10 il Nigarla bir sinifdə təhsil alan Nəzrin ən yaxın rəfiqəsi olmuş Nigarın qayğıkeşliyindən, mehribanlığından söz açdı. Sonra da əllərini üzünə qapayıb ağladı. Nigarla eyni sinifdə təhsil alan Firəngiz Cəfərli, İnci Mustafayeva da rəfiqələri haqqında ağızdolusu danışdılar və onu itirməklə həyatlarında bir boşluq yarandığını söylədilər.

Gəncəyə atılmış raket zərbələri neçə-neçə insanın ömrünü yarımçıq qoydu. Qarabağ Zəfəri ilə onların qisası alınmış oldu.

*Sabir ƏLİYEV, "Azərbaycan"*




## ANAMA:

## "Ötən həftə 962 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib"

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra olunan minatəmizləmə əməliyyatları barədə həftəlik məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, sentyabrın 1-dən oktyabrın 2-dək Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 429, tank əleyhinə 83 mina və 533 ədəd partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həftə ərzində 962 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

Ötən il noyabrın 10-dan bu il oktyabrın 2-dək isə ümumilikdə 5537 hektar ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib.

# Gürcüstanda yerli seçkilərdə hakim partiya irəlidədir

## Amma ölkənin böyük şəhərlərinə merlərin seçilməsi ikinci tura qalıb



Oktyabrın 2-də Gürcüstanda keçirilmiş yerli idarəetmə orqanlarına seçkilərin ilkin nəticələri məlum olmuşdur. Səslərin yarıdan çoxu hesablandıqdan sonra hakim "Gürcü arzusu - Demokratik Gürcüstan" Partiyası seçkilərdə 47,71 faiz səslə liderlik edir. Bu barədə Gürcüstanın Mərkəzi Seçki Komissiyası məlumat verib.

Bildirilir ki, ikinci yerdə 31,37 faiz səs toplayan Nika Meliyanın "Vahid Milli Hərəkat" Partiyası qərarlaşıb. Xatırladaq ki, bu partiyanı seçkilər ərəfəsində həbs olunmuş sabiq prezident Mixeil Saakaşvili yaradıb. Üçüncü yeri 7,1 faiz səslə sabiq baş nazir Georgi Qaxariyanın "Gürcüstan uğrunda" Partiyası tutur.

Həmçinin məlum olmuşdur ki, ölkənin ən iri 5 şəhərinin, o cümlədən paytaxt Tbilisinin merliyinə namizədlərdən heç biri 50 faizdən artıq səs qazana bilmədiyindən ikinci tur keçiriləcək.

Əksər seçki məntəqələrində səsvermə prosesini izləmiş müşahidəçilərin qiymətləndirilməsi müsbət olmuşdur. Bəzi avropalı müşahidəçilər müəyyən pozuntuları qeyd etsələr də, MSK-nın iclaslarının ilk dəfə açıq keçirildiyini və birbaşa yayımda efirə verildiyini, bunun nəticəsində prosesin şəffaflığının artdığını vurğulamışlar.

Ümumilikdə seçkilərdə 50 partiya iştirak etmişdir. 1,81 milyondan çox seçici (51,92 faiz) səs vermişdir.

Bu arada Gürcüstanın Baş naziri İrakli Qaribaşvili bildirmişdir ki, ötən cümə günü Tbilisidə Ukrayna vətəndaşı Mixeil Saakaşvilinin saxlanılması Gürcüstan-Ukrayna münasibətlərinin pisləşməsinə səbəb olmayacaq. Hökumət başçısının dediyinə görə, "həbsxanada özünün düşdüyü ağır vəziyyəti anlayan Saakaşvili indi Kiyevə qaytarılmasını tələb edir. Lakin bu, 6 ildən sonra mümkün ola bilər".

İ.Qaribaşvili keçmiş prezidentin ölkə sərhədini keçməsinin detallarını açıqlamamış, lakin qeyd etmişdir ki, operativ xidmətlər onu tələyə salmışlar. Hökumət başçısı hesab edir ki, M.Saakaşvilinin tutulması ilə böyük bir təxribatın qarşısı alınmışdır. Yaxın vaxtlarda Gürcüstanın hüquq mühafizə orqanları bunun təfərrüatlarını açıqlayacaq.

"Gürcüstanın üçüncü prezidenti Mixeil Saakaşvili heç vaxt əfv olunmayacaq". Bu barədə ölkə Prezidenti Salomi Zurabişvili bildirmişdir. Bununla bağlı o demişdir: "Gürcüstanın sabiq prezidentinin tutulması səhnəsi mənə də xoş təsir bağışlamadı, lakin qanunun aliliyi hər şeydən üstündür".

Xatırladaq ki, oktyabrın 1-də həbs olunmuş Mixeil Saakaşvili Rustavi şəhərindəki 12 saylı həbsxanaya aparılmışdır. Bundan əvvəl siyasətçi bildirirdi ki, yerli idarəetmə orqanlarına seçkilər keçirilən gün Ukraynadan vətənə qayıtmaq niyyətindədir.

Gürcüstan prokurorluğu sabiq prezidenti bir neçə cinayət maddəsi ilə ittiham edir. Onlardan ikisi üzrə M.Saakaşvili artıq mühakimə olunmuş və qiyabi olaraq 6 il həbs cəzasına məhkum edilmişdir.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*

## “Azərişıq” ASC-nin cəbhəyanı rayonlarda Qərb və Aran regionları üzrə elektrik təsərrüfatına dəymiş zərərlərin aradan qaldırılması üçün elektrik şəbəkələrində görüləcək işlərin satın alınması üzrə təkliflər sorğusu elan edir

İddiaçılar təkliflərini möhürlənmiş qaydada ikiqat zərflərdə 19.10.2021-ci il saat 12:00-a qədər “Azərişiq” ASC-nin Tender komissiyasına təqdim etməlidirlər. Zərflər 20.10.2021-ci il saat 15:00-da aşağıda qeyd olunan ünvanda açılacaqdır. Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

**LOT 1 -** “Azərişiq” ASC-nin cəbhəyanı rayonlarda **Qərb və Aran regionları üzrə** elektrik təsərrüfatına dəymiş zərərlərin aradan qaldırılması üçün elektrik şəbəkələrində görüləcək işlərin satın alınması.

**İştirak haqqı - 250 (iki yüz əlli) manat**
“Azərişiq” ASC
Hesab: AZ83AIIB33020029441802068118
VÖEN: 9900069391
Benefisiarın Bankı: “Kapital Bank”ın Gənclik filialı
Kod: 200189
VÖEN: 9900003611
Müxbir hesab: AZ37NABZ01350100000000001944
SWIFT Code: AIIBAZ2X
İştirak haqqı heç bir halda geri qaytarılmır.

**Əlaqələndirici şəxs: Namiq Heybətov**
**Əlaqə telefonu (şəhər): 012 440 39 93 (daxili 92-19)**
**Elektron poçt: namiq.heybetov@azerishiq.az Ünvan: Bakı şəhəri, M.Əliyev küçəsi, 130, AZ1009**

***Tender komissiyası***

## “Azərişıq” ASC-nin cəbhəyanı rayonlarda Mərkəzi Aran regionu üzrə elektrik təsərrüfatına dəymiş zərərlərin aradan qaldırılması üçün elektrik şəbəkələrində görüləcək işlərin satın alınması üzrə təkliflər sorğusu elan edir

İddiaçılar təkliflərini möhürlənmiş qaydada ikiqat zərflərdə 19.10.2021-ci il saat 12:00-a qədər “Azərişiq” ASC-nin Tender komissiyasına təqdim etməlidirlər. Zərflər 20.10.2021-ci il saat 15:00-da aşağıda qeyd olunan ünvanda açılacaqdır. Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

**LOT 1 -** “Azərişiq” ASC-nin cəbhəyanı rayonlarda **Mərkəzi Aran regionu üzrə** elektrik təsərrüfatına dəymiş zərərlərin aradan qaldırılması üçün elektrik şəbəkələrində görüləcək işlərin satın alınması.

**İştirak haqqı - 250 (iki yüz əlli) manat**
“Azərişiq” ASC
Hesab: AZ83AIIB33020029441802068118
VÖEN: 9900069391
Benefisiarın Bankı: “Kapital Bank”ın Gənclik filialı
Kod: 200189
VÖEN: 9900003611
Müxbir hesab: AZ37NABZ01350100000000001944
SWIFT Code: AIIBAZ2X
İştirak haqqı heç bir halda geri qaytarılmır.

**Əlaqələndirici şəxs: Namiq Heybətov**
**Əlaqə telefonu (şəhər): 012 440 39 93 (daxili 92-19)**
**Elektron poçt: namiq.heybetov@azerishiq.az Ünvan: Bakı şəhəri, M.Əliyev küçəsi, 130, AZ1009**

***Tender komissiyası***

## BİLDİRİŞ

“Bakı Toxucu” QSC-nin 2020-ci il üzrə maliyyə hesabatlarını Azərbaycan Respublikası Auditor Palatasının 26 dekabr 2016-cı il tarixli SA/065 saylı icazə qeydiyyatı ilə fəaliyyət göstərən sərbəst auditor Vəli Oruc oğlu Bayramov aparmışdır.

Müstəqil auditor 18 avqust 2021-ci il tarixdə cəmiyyətin fəaliyyəti haqqında müsbət auditor rəyi tərtib etmişdir.

**Ünvan: Bakı şəhəri, Bülbülə qəsəbəsi, S. Bəhlulzadə küçəsi, 47.**
**Telefon: 012 458-14-21**

***İdarə Heyəti***

## “Bakı Şəhər Əsaslı Tikinti və Təmir” MMC Bakı şəhərində və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi və təmiri işlərinin davam etdirilməsi məqsədilə təkliflər sorğusu elan edir

**LOT - 1.** “Suraxanı rayonu, Əmircan qəsəbəsində 87 nömrəli orta məktəbin köhnə korpusunun sökülərək 1752 şagird yerlik yeni korpusların tikintisinin davam etridirilməsi”nin satın alınması.

Təkliflər sorğusu iştirakçılarına təklif edilir ki, öz təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün prosedur iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Təkliflər sorğusunda iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər.

Əlaqələndirici şəxs: Əhməd Məmmədov, tel: 012 496-52-05.

**İştirak haqqı - 500,00 manat**
**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:**
**Bakı Şəhər İcra Hakimiyyətinin “Bakı Şəhər Əsaslı Tikinti və Təmir” Məhdud Məsuliyyətli Cəmiyyəti**
**H/h: AZ22IBAZ38030019446253269215**
**VÖEN: 1702563281**
**Kod: 805625**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**SWIFT: IBAZAZ2X**
**İştirak haqqı heç bir halda qeri qaytarılmır.**

İştirakçılar təkliflər sorğusunda iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *təkliflər sorğusunda iştirak etmək üçün ərizə;*
- *təkliflər sorğusunda iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *təkliflər sorğusu təklifi (zərfin açıldığı tarixdən sonra azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *təkliflər sorğusu təklifi qiymətlərin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
- *iddiaçının son bir il ərzində maliyyə vəsaiti haqqında bank tərəfindən verilmiş arayış;*
- *Azərbaycan Respublikasında vergilərə və digər ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *dövlət satınalmaları müsabiqəsində iştirak etmiş oxşar işlərə dair son 3 ildə bağlanmış müqavilələrin surəti (təsdiqli formada);*
- *tikinti işlərinin həyata keçirilməsi ilə bağlı müvafiq lisenziya.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki təkliflər sorğusu sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar təkliflər sorğusu ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Təkliflər sorğusu proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar öz təkliflərini Əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun hazırlamalı, təkliflər sorğusunda iştirak üçün sənədləri qapalı, ayrı-ayrı möhürlənib imzalanmış ikiqat zərflərdə **19 oktyabr 2021-ci il saat 15:00-dək** Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev, 17 ünvanına (əlaqələndirici şəxs - Əhməd Məmmədov, telefon: (012) 496-52-05) təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **20 oktyabr 2021-ci il saat 11:00-da** Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev, 17 ünvanında açılacaqdır.

***Tender komissiyası***

## “Azərişıq” ASC Şamaxı rayonu, Sabir qəsəbəsi ərazisində yerləşən “Şirvan Aqro” MMC-yə məxsus heyvandarlıq kompleksinin xarici elektrik təchizatı işlərinin satın alınması məqsədilə təkliflər sorğusu elan edir

Təkliflər sorğusunda iştirak etmək istəyənlər 500 (beş yüz) manat məbləğində iştirak haqqını aşağıda göstərilən bank hesabına köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Mirzəağa Əliyev küçəsi, 130 ünvanından ala bilərlər.

**“Azərişıq” ASC**
**Hesab: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: “Kapital Bank”ın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

Maraqlanan şəxslər (+994 12) 440-39-93; daxili (92-19) telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Əlaqələndirici şəxs - Namiq Heybətov, namiq.heybetov@azerishiq.az

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 19 oktyabr 2021-ci il saat 12:00-a qədər qəbul olunur. Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 20 oktyabr 2021-ci il saat 12:00-da Mirzəağa Əliyev küçəsi, 130 ünvanında “Azərişıq” ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***


# OXUCULARIN NƏZƏRİNƏ!

# “AZƏRBAYCAN”

***qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

*“Azərmətbuatyayımı” ASC* (012) 440-46-94, (012) 441-19-91
*“Azərpoçt” ASC* (012) 598-49-55, (051) 225-02-13
*“Qaya” firması* (012) 566-77-80, (050) 214-40-53
*“Kaspi” MMC* (012) 432-39-55, (012) 510-82-24
*“Region Press” MMC* (055) 316-79-01, (050) 316-79-01
*“Səma-M” MMC* (012) 594-09-59
*“Ziya” LTD* (012) 497-76-96, (050) 306-77-22
*“Pressinform” MMC* (012) 598-49-52, (070) 340-01-00
*“City press” MMC* (055) 819-09-26

1 illik
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

6 aylıq
62,40 (altmış iki manat qırx qəpik) manat

3 aylıq
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


*Təkrar*

## DİN-in Baş Dövlət Yol Polisi İdarəsi
## *açıq tender elan edir*

LOT- 1: 2022-ci ilin tələbatına uyğun olaraq DİN-in Baş Dövlət Yol Polisi İdarəsi tərəfindən “Nəqliyyat vasitələri üçün dövlət qeydiyyat nişanlarının, dövlət qeydiyyat şəhadətnamələri və sürücülük vəsiqələri üçün blankların istehsalı, habelə istehsal prosesinin təmin edilməsi üçün dəstləşdirici mal-materialların satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Ətraflı məlumatı Xırdalan, Binəqədi şosesi, 4 (Əlaqələndirici şəxs: Əvəz Məmmədzadə. telefon: +994125908160 (itts703@rambler.ru)) ünvanından almaq olar.

**İştirak haqqı: LOT- 1: 3000 AZN**

**Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:**

**Təşkilat - Baş Dövlət Yol Polisi İdarəsi**
**VÖEN: 9900063851**
**H/h: AZ45CTRE00000000000002078506**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**M/h: AZ41NABZ01360100000000003944**
**SWİFT Bik: CTREAZ22**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
3. *Tender təklifi (zərflərin açıldığı gündən qüvvədə olma müddəti) 30 bank günü.*
4. *Tender təklifinin ümumi qiymətinin 1 faizi məbləğində təminatın qüvvədə olma müddəti (zərflərin açılış tarixindən sonra) 30 bank günü.*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
8. *Satınalan təşkilatın müəyyən etdiyi digər sənədlər.*
9. *Sahibkarlıq subyektinin meyarına dair sənəd.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **27.10.2021-ci il saat 13:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **10.11.2021-ci il saat 13:00-a** qədər Xırdalan, Binəqədi şosesi, 4 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təkliflərinin açılışı 11.11.2021-ci il saat 13:00-da Xırdalan, Binəqədi şosesi, 4 ünvanında aparılacaqdır. Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

“Azərbaycan” qəzetinin 13.08.2021-ci il və 30.08.2021-ci il tarixli nömrələrində dərc edilmiş Azərbaycan Respublikası Mərkəzi Bankının “Banklararası Kart Mərkəzi”nin “Ödəniş kartı sahəsində məlumat təhlükəsizliyi standartları”nın (PCI DSS) tələblərinə uyğunluğu və PCI DSS sertifikatının alınması və SWIFT üzrə lokal infrastrukturun SWIFT cəmiyyətinin “İstifadəçi təhlükəsizliyinə nəzarət konsepsiyası”nın (CSCF) tələblərinə uyğunluğu üzrə auditin həyata keçirilməsinə dair açıq tenderlər Tender komissiyasının 28.09.2021-ci il tarixli qərarına əsasən “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə müvafiq olaraq baş tutmamış hesab edilmişdir.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

***Abbas Salman oğlu Nəcəfovun adına verilmiş veteran kitabçası (MV-076629) itdiyi üçün etibarsız sayılır.***

# ALLAH RƏHMƏT ELƏSİN!

“Azərbaycan” qəzeti redaksiyasının kollektivi iş yoldaşları Rəsmiyyə Məmmədbağırovaya anası
**SARA XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin kollektivi iş yoldaşları Aydın Əliyevə anası
**SEVİNC ƏLİYEVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaysan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazova əzizi
**ÇİNGİZ MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının daxili işlər naziri Vilayət Eyvazova əzizi
**ÇİNGİZ MƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

“Azərbaycan” nəşriyyatının kollektivi iş yoldaşları
**ARİF ŞABANOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

“AzerGold” QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Ramilə Tağıyevaya atası
**MUSA MUSAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazova əzizi
**ÇİNGİZ MƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Tibb Universitetinin Ailə təbabəti kafedrasının əməkdaşları kafedranın müdiri Mustafa Salihova qardaşı
**RAUF SALİHOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Salihovlar, Balakişiyevlər, Kazımovlar, Şıxalibəylilər, Bağırovlar, Nəcəfovlar və Dadaşovlar əzizləri
**RAUF SALİH OĞLU SALİHOVUN**
vəfatını yaxınlarına və dostlarına bildirirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5613
Sifariş 1868
Qiyməti 40 qəpik